# Cinayət mühakiməsində genetik məlumatların istifadəsi: Yeni dövr, yoxsa məxfiliyə hücum?

*Məhin Əkbərova*[*]

DOI: https://doi.org/10.30546/224578.010.2025.034

**Annotasiya**

*Müasir dövrdə genetik məlumatların toplanması, saxlanması və istifadəsi hüquq sisteminin qarşısına yeni və mürəkkəb suallar çıxarır. Biotibbi tədqiqat mərkəzləri və birbaşa istehlakçıya yönəlmiş DNT test şirkətləri milyonlarla insanın genetik məlumatını toplayır və emal edir. Lakin ən ciddi məsələ bu məlumatların kim tərəfindən, hansı məqsədlərlə və nə qədər müddət ərzində istifadə olunmasıdır. Məhz burada hüququn əsas vəzifəsi texnologiyanın imkanları ilə insan hüquqlarının sərhədləri arasında balans yaratmaq olur. Məqalədə genetik məlumatların cinayət mühakiməsində istifadəsi üzrə beynəlxalq tənzimləmə və AİHM təcrübəsi təhlil edilərək Azərbaycan qanunvericiliyinin təkmilləşdirilməsi üçün təkliflər irəli sürülür.*

**Abstract**

*In the modern era, the collection, storage and use of genetic data pose new and complex challenges for legal systems. Biomedical research centers and direct-to-consumer DNA testing companies collect and process the genetic information of millions of individuals. However, the most pressing legal issue lies in determining who uses this data, for what purposes, and for how long. The core responsibility of law, therefore, is to maintain a balance between the capabilities of modern technology and the boundaries of human rights. This article examines international regulation and the jurisprudence of the ECtHR concerning the use of genetic data in criminal proceedings and advances proposals for the improvement of Azerbaijani legislation.*

**MÜNDƏRİCAT**

Giriş ........ 299
I. Genetik məlumat anlayışı ........ 300
II. Genetik məlumatların tənzimlənməsinə dair hüquqi çərçivə ........ 302
  A. Oviedo Konvensiyası və Əlavə Protokol ........ 302
  B. Ümumi Məlumatların Qorunması Reqlamenti ........ 304
III. Cinayət mühakiməsində genetik məlumatlardan necə və nə üçün istifadə edilir? ........ 307

[*] Bakı Dövlət Universiteti, Hüquq fakültəsi, IV kurs tələbəsi.
Məqalənin yazılması və redaktəsində göstərdiyi dəstəyə görə "Gənc Hüquq Alimləri Araşdırma Yardımçısı Layihəsi"nə, tədqiqatın istiqamətləndirməsi və məqalənin əsas iddiasının formalaşdırılmasındakı töhfəsinə görə Nəcibə Rəfizadəyə təşəkkür edirəm.

A. Cinayət yerindən genetik nümunələrin toplanması və təhlil prosedurları ....................................................................................307
B. Cinayət mühakiməsində genetik məlumatlardan istifadənin üstünlükləri və riskləri ....................................................................309
IV. Təhlükəsizlik və şəxsi həyat arasındakı balans necə qorunur? ...............311
V. Cinayət mühakiməsində genetik məlumatların istifadəsinin Azərbaycan qanunvericiliyi çərçivəsində tənzimlənməsi ..................................................319
Nəticə ..............................................................................................................326

## Giriş

Müasir dövrdə, daha dəqiq desək, informasiya əsrində səhiyyə sistemində texnoloji innovasiyalar, süni intellekt alətləri hesabına genetik məlumatların toplanması və emalı olduqca asanlaşmaqla bərabər, həm də aktuallaşıb. Bu prosesdə həm ictimai, həm də kommersiya subyektləri, o cümlədən biotibbi tədqiqat mərkəzləri və birbaşa istehlakçıya yönəlmiş DNT test şirkətləri milyonlarla fərdin genetik və sağlamlıq məlumatlarını toplayır, saxlayır və ötürür. Lakin bu tendensiya hüquqi müstəvidə ciddi problemlər yaradır. Belə ki, məlumatların hansı məqsədlərlə və kim tərəfindən istifadə edildiyi barədə qeyri-müəyyənliklər meydana gəlir.[1] Həmçinin genetik məlumatlar müasir dövrdə yalnız fərdi mahiyyət daşımır, eyni zamanda onunla əlaqəli şəxslərin ailə üzvlərinin, hətta gələcək nəsillərin belə məxfiliyinə birbaşa təsir göstərir. Bu xüsusiyyət göstərir ki, genetik informasiya ənənəvi məxfilik anlayışından fərqlənir və onun məxfiliyini yalnız fərdi müstəvidə izah etmək yetərli deyil. Bu kontekstdə irəli sürülən "əlaqəli məxfilik" (relational privacy) nəzəriyyəsinə əsasən bir şəxsin genetik məlumatlarına dair qərar yalnız həmin şəxsin deyil, genetik olaraq əlaqədə olduğu fərdlərin də şəxsi hüquqlarına təsir göstərir. Bu isə məxfilik hüququnun kollektiv komponentlərinin nəzərə alınmasını da zəruri edir.[2]

Bu yanaşma Avropa İnsan Hüquqları Məhkəməsi və Avropa İttifaqı Ədalət Məhkəməsinin müvafiq qərarlarında qismən əks olunmuş, lakin hələlik kifayət qədər normativ əsas kimi qəbul edilməmişdir. Genetik məlumatın gələcək nəsillərə və ailə dairəsinə təsir imkanları göstərir ki, yalnız fərdi razılıq və məxfilik hüququnun dar mənada tətbiqi bu məlumatların hüquqi müdafiəsi üçün kifayət etmir. Buna görə də genetik məlumatların emalı üzrə hüquqi çərçivələr təkcə fərdi razılıq və şəxsi muxtariyyət prinsiplərinə əsaslanmamalı, həm də sosial, ailəvi və bioloji əlaqələr nəzərə alınmaqla

[1] Kristi Harbord, *Genetic Data Privacy Solutions in the GDPR*, 7 Texas A&M Law Review 269, 271-272 (2019).
[2] Róisín Á Costello, *Genetic Data and Right to Privacy: Towards a Relational Theory of Privacy?*, 22 Human Rights Law Review 1, 2-4 (2022).

formalaşdırılmalıdır ki, bu da müasir hüquqi tənzimləmədə xüsusi əhəmiyyət daşıyır.[3] Genetik məlumatların qorunması sahəsindəki mövcud sistem həm texnoloji, həm də hüquqi baxımdan olduqca mürəkkəbdir. Razılıq mexanizmlərinin qeyri-effektivliyi və məlumatların tam şəkildə anonimləşdirilə bilməməsi fərdlərin məxfiliyini real olaraq təmin etmir. Bundan əlavə, müxtəlif ölkələrdə tətbiq olunan fərqli hüquqi normalar bu sahədə vahid beynəlxalq standartın formalaşmasına mane olur və nəticədə genetik məxfiliyin qorunmasında ciddi boşluqlar yaranır. Yəni hüquqi müdafiənin effektiv təmin olunması üçün normativ bazanın yalnız texnologiyanın sürətinə uyğunlaşdırılması deyil, coğrafi fərqləri də nəzərə alaraq vahid və şəffaf şəkildə qurulması vacibdir. Belə bir tənzimləmə modeli həm fərdlərin hüquqlarını müdafiə edər, həm də elmi və tibbi innovasiyaların etik çərçivədə inkişafını təmin edə bilər.[4] Bu məqalədə cinayət mühakiməsində genetik məlumatların istifadəsinin hüquqi və etik aspektləri, təhlükəsizliklə şəxsi və ailə həyatına hörmət hüququ arasında balansın necə qorunmalı olduğu və genetik məlumatlardan sui-istifadə hallarının qarşısının alınması yolları araşdırılacaqdır. Məqalə həm milli, həm də beynəlxalq hüquqi tənzimləmələri nəzərə almaqla, bu sahədə mövcud boşluqları və gələcək islahat ehtiyaclarını vurğulamağı hədəfləyir.

## I. Genetik məlumat anlayışı

Genetik məlumat anlayışı nəzəri müstəvidə insanın genetik kodunda əks olunan, onun bioloji mahiyyətini və irsi kimliyini müəyyən edən fundamental informasiya kimi səciyyələndirilir. Bu məlumatın əsasını insan orqanizminin dezoksiribonuklein turşusunun (DNT) strukturu təşkil edir. DNT-dəki ardıcıllıqlar isə yalnız canlı orqanizmin morfoloji və fizioloji xüsusiyyətlərini deyil, həm də irsi ötürülmə mexanizmlərini müəyyən edir. Nəticə etibarilə, genetik məlumat fərdin bioloji şəxsiyyətinin sabit, dəyişməz və təkrarsız ifadəsidir. Bu xüsusiyyətinə görə, biohüquq nəzəriyyəsində genetik məlumat "fərdi identikliyin bioloji nüvəsi" kimi qəbul olunur və insanın şəxsiyyət bütövlüyünün ayrılmaz elementi sayılır. Genetik məlumatın mahiyyətini sırf bioloji göstəricilərlə məhdudlaşdırmaq da mümkün deyil, o, eyni zamanda informasiya daşıyıcısı kimi çoxsəviyyəli xarakter daşıyır. Həmçinin bu məlumat statik informasiyadır, yəni fərdin genetik quruluşunu sabit formada əks etdirir, digər tərəfdən isə, o, dinamik və proqnostik xarakterə malikdir. Bu o deməkdir ki, genetik məlumat təkcə cari bioloji vəziyyəti deyil, həm keçmişdəki genetik mənşəyi, həm də gələcəkdə mümkün bioloji dəyişiklikləri (xəstəliklərə meyillilik, farmakogenetik reaksiyalar, irsi risklər) əks etdirir. Yəni fərdin DNT kodu onun bioloji tarixinin daşıyıcısı olmaqla, həm də gələcəkdə baş verə biləcək hadisələrin, məsələn müəyyən genetik mutasiyaların və ya irsi patologiyaların ehtimalını müəyyənləşdirməyə

[3] Yenə orada, 4.

[4] Harbord, yuxarıda istinad 1, 272.

imkan verir. Bu xüsusiyyət genetik məlumatı digər şəxsi məlumat növlərindən kəskin şəkildə fərqləndirir. Nəzəri ədəbiyyatda bu səbəbdən genetik məlumat "proqnostik xarakterli şəxsi məlumat" kimi təsnif olunur.

Bu termin onun hüquqi və etik statusunun mürəkkəbliyini izah edir. Belə ki, fərdin genetik məlumatı həm öz sahibi üçün, həm də üçüncü şəxslər (sığorta şirkətləri, işəgötürənlər, tibbi tədqiqat qurumları və s.) üçün yüksək proqnozlaşdırıcı dəyərə malikdir. Belə bir məlumatın istifadəsi insanın gələcək bioloji və sosial vəziyyəti barədə nəticələr çıxarmağa imkan verdiyi üçün, o, məxfilik, razılıq və məlumatın məqsədyönlü istifadəsi prinsipləri ilə ciddi şəkildə tənzimlənməlidir. Nəticə etibarilə, genetik məlumatın anlayışı biologiyanın predmetindən kənara çıxaraq hüquqi, etik və sosial məsuliyyət sahələrinin kəsişməsində yerləşir. Onun keçmişi, bu günü və gələcəyi əhatə edən çoxölçülü informasiya daşıyıcısı olması, bu məlumat növünü müasir hüququn ən həssas tənzimləmə obyektlərindən birinə çevirir.[5]

Digər bir vacib məqam ondan ibarətdir ki, genetik məlumat anlayışı təkcə bioloji deyil, həm də sosial və ailəvi baxımdan dərin məna daşıyır. Bir şəxsdən götürülən genetik məlumat yalnız onun haqqında deyil, həm də ailə üzvləri və qohumları barədə mühüm məlumat verir. Buna görə genetik məlumat fərdi deyil, paylaşılmış xarakter daşıyan informasiya hesab olunur. Məsələn, bir insanın genetik testinin nəticələri onun valideynləri, bacı-qardaşları və gələcək övladları haqqında da müəyyən bilgilər ortaya çıxara bilər. Bu səbəbdən genetik məlumatın öyrənilməsi yalnız fərdin deyil, eyni zamanda ailəsinin və gələcək nəsillərinin hüquqlarına da təsir göstərir. Nəticə etibarilə, genetik məlumatın qorunması təkcə şəxsi məxfilik məsələsi deyil, həm də ümumi sosial və etik məsələ kimi qiymətləndirilməlidir.[6] Hüquqi konsepsiyada isə genetik məlumat fərdin iradəsindən asılı olmayaraq mövcud olan, lakin onun hüquqi statusunu və şəxsi həyat sferasını müəyyən edən informasiya növü kimi qəbul edilir. Bu, klassik şəxsi məlumat anlayışını genişləndirir, çünki genetik məlumat yalnız fərdi bədənə aid informasiyanı deyil, ailə üzvlərinə, irsi xətlərə və gələcək nəsillərə də yönələn bioinformasiya xarakteri daşıyır. Beləliklə, genetik məlumat fərdin "şəxsi həyatı"nı fiziki mənada deyil, genetik məkan və zaman daxilində qoruma zərurətini yaradır. Hüquq burada yalnız məlumatın məxfiliyini deyil, həm də onun təhrif olunmadan, manipulyasiyasız, elmi əsaslarla işlənməsini təmin edən normativ mühitin formalaşmasını hədəfləyir.[7] Bu aspektdə genetik məlumat hüquqi müstəvidə həm şəxsi hüquqların, həm də ictimai təhlükəsizliyin kəsişmə nöqtəsində dayanır. Genetik məlumat anlayışının

---

[5] Bartha Maria Knoppers, *Genetic Information and the Family: Are We Our Brother's Keeper?*, 20 Trends in Biotechnology 85, 85 (2002).

[6] National Human Genome Research Institute, Genetic Information Nondiscrimination Act Patient Resource. Burada bax: https://www.genome.gov/sites/default/files/media/files/2020-09/GINA_patient_resource.pdf (son baxış 3 mart 2025).

[7] Convention on Human Rights and Biomedicine, mad. 10 (1997).

hüquqi dəyəri onun insan ləyaqətinin ayrılmaz hissəsi kimi qəbul olunması ilə tamamlanır.[8] Hüquq elmində bu məlumat fərdin "öz bədəninə və məlumatına sahiblik" hüququnun tərkib elementi sayılır.[9] Genetik kodun hüquqi dəyəri isə ondan irəli gəlir ki, bu kod üzərində nəzarət yalnız elmi və tibbi məqsədlərlə deyil, həm də hüquqi tanınma, ədalət mühakiməsi və cinayət araşdırması kontekstlərində istifadə olunur. Belə vəziyyətdə hüquq iki məqsəd arasında balans axtarır: bir tərəfdən, genetik məlumatdan ictimai maraq naminə istifadə (məsələn, ədliyyə genetik ekspertizası üçün), digər tərəfdən isə fərdin genetik məxfiliyinin qorunması.[10] Buna görə də genetik məlumat anlayışı hüquqi təhlildə həm obyekt (məlumat forması), həm subyekt hüququ (şəxsi həyatın tərkibi), həm də ictimai məsuliyyət elementlərini özündə birləşdirən çoxlaylı normativ kateqoriya kimi qəbul edilir.[11]

## II. Genetik məlumatların tənzimlənməsinə dair hüquqi çərçivə

Bütün bunlar genetik məlumatların hüquqi statusunun, qorunma səviyyəsinin və hüquq subyektlərinin müdafiə mexanizmlərinin aydın şəkildə müəyyən olunmasını zəruri edir. Bu baxımdan, Avropa Şurasının "İnsan Hüquqları və Biotibb haqqında Konvensiyası" (Oviedo Konvensiyası, 1997) və onun "Genetik testlərlə bağlı insan hüquqlarının qorunmasına dair Əlavə Protokolu" (2008) genetik məlumatların hüquqi təməlini formalaşdıran əsas beynəlxalq sənədlərdən hesab olunur, genetik məlumatların müxtəlif sahələrdə istifadəsinə dair Avropa Şurasının "Məlumatların Mühafizəsi üzrə Ümumi Qaydası"(2016), ABŞ-də qəbul olunan "Genetik Məlumatların Qeyri-Diskriminasiya" Qanunu kimi hüquqi aktlar mövcuddur.

### A. Oviedo Konvensiyası və Əlavə Protokol

Genetik məlumatların hüquqi statusunu tənzimləyən Oviedo Konvensiyası insan hüquqları və biotexnologiyanın tətbiqi arasında balansı qorumağa yönəlmiş ilk beynəlxalq hüquqi sənəd olaraq, genetik məlumatların istifadəsinə dair bəzi prinsipləri ehtiva etsə də, bu məlumatların aydın və dəqiq hüquqi tərifini təqdim etmir. Konvensiyanın 12-ci maddəsində qeyd olunur ki, genetik testlər yalnız sağlamlıq məqsədləri üçün həyata keçirilə, o cümlədən tibbi və elmi ehtiyaclara yönəlik istifadə oluna bilər. Bu, genetik məlumatların yalnız biotibbi kontekstdə nəzərdən keçirildiyini göstərir və onların digər sahələrdə tətbiqinə dair hüquqi istiqamət vermir. Həmçinin test nəticələrinin şəxsin hüquqi statusuna təsiri,

---

[8] Universal Declaration on the Human Genome and Human Rights, mad. 3-6 (1997).
[9] Council of Europe, Protection of Health-Related Data - Recommendation CM/Rec(2019)2, § 4-7 (2019).
[10] Yenə orada, § 13.
[11] Yenə orada, § 11.

hüquqi nəticə doğurma potensialı, habelə genetik məlumatların saxlanması, ötürülməsi və emalı ilə bağlı konkret mexanizmlər Konvensiyada aydınlaşdırılmamışdır.[12] Lakin Oviedo Konvensiyasına əlavə edilmiş "İnsan genetik məlumatlarının istifadəsinə dair 2008-ci il Əlavə Protokol" genetik məlumatların hüquqi tənzimlənməsini daha dəqiq və sistemli çərçivəyə salmaq məqsədi daşıyır. Protokol genetik məlumatı şəxsin irsi xüsusiyyətlərini əks etdirən, onun sağlamlıq vəziyyəti barədə bilgilər verən və əsasən tibbi məqsədlərlə istifadə olunmalı məlumat kimi müəyyən edir. Sənədin 2-ci maddəsində genetik testlərin məqsədi aydın şəkildə izah olunur və qeyd edilir ki, bu testlər insanın irsi xüsusiyyətlərini müəyyənləşdirmək, tibbi diaqnostika aparmaq, sağlamlıq risklərini qiymətləndirmək və elmi tədqiqatlar həyata keçirmək məqsədilə həyata keçirilə bilər. Bu yanaşma genetik məlumatın hüquqi təbiətinə dair iki mühüm nəticə doğurur. Birincisi, belə məlumat yalnız tibbi diaqnostika vasitəsi kimi deyil, həm də fərdin identifikasiyası və hüquqlarının qorunması ilə sıx bağlı olan xüsusi kateqoriya kimi tanınır.[13] İkincisi, Protokol genetik məlumatın istifadəsini məxfilik və fərdi razılıq prinsipləri ilə məhdudlaşdıraraq, onun etik və hüquqi sərhədlərini müəyyənləşdirir. Belə ki, Əlavə Protokol, həmçinin 4-cü və 11-ci maddələrdə genetik məlumatların toplanması, işlənməsi və saxlanılması zamanı şəxsin razılığının alınması, məxfiliyin qorunması və bu məlumatların təyin olunmuş məqsəddən kənar istifadə edilməməsi ilə bağlı konkret hüquqi öhdəliklər müəyyən edir. Beləliklə, Protokol genetik məlumatın hüquqi mahiyyətini daha dəqiq müəyyənləşdirir və onun fərdin fundamental hüquqları ilə əlaqəsini daha açıq şəkildə ortaya qoyur.[14] Bu tərif genetik məlumatların istifadəsini biotibbi məqsədlərlə məhdudlaşdırır və onun hüquqi, inzibati və ya kommersiya yönümlü tətbiq sahələrini Protokolun tənzimləmə predmetindən kənarda qoyur. Lakin bu yanaşma genetik məlumatların müasir dövrdə multifunksional xarakter daşıdığı reallığı ilə ziddiyyət təşkil edir. Məsələn, Protokolda işlədilən "risklərin qiymətləndirilməsi" anlayışı sırf tibbi kontekstdə, yəni fərdin genetik meyillərinin xəstəliklərə qarşı həssaslığının müəyyənləşdirilməsi mənasında başa düşülür. Bu, mahiyyət etibarilə profilaktik tibbi məqsəd hesab edilir və səhiyyə xidməti ilə məhdudlaşır. Buna görə də "gələcək risklərin təhlili" Protokol çərçivəsində tibbi məqsədli istifadə kimi qiymətləndirilir. Bunun əksinə, genetik məlumatın cinayət prosesi, valideynliyin müəyyən edilməsi və ya miqrasiya nəzarəti kimi hallarda identifikasiya məqsədilə istifadəsi artıq qeyri-tibbi məqsədlər kateqoriyasına aid edilir. Bu hallarda genetik məlumat bioloji deyil, hüquqi faktın sübutu funksiyasını daşıyır. Protokolun 1-ci və 3-

[12] Bax: yuxarıda istinad 7.
[13] Additional Protocol to the Convention on Human Rights and Biomedicine, concerning Genetic Testing for Health Purposes, mad. 2 (2008). Burada bax: https://rm.coe.int/1680084824 (son baxış 3 mart 2025).
[14] Yenə orada, mad. 4, 11.

cü maddələri onun tətbiq dairəsini yalnız səhiyyə məqsədləri ilə məhdudlaşdırdığından, identifikasiya yönümlü bu kimi istifadə halları onun tənzimetmə predmetindən kənarda qalır.[15] Bu məhdudluq hüquqi praktikada bir sıra normativ ziddiyyətlər yaradır. Məsələn, cinayət proseslərində DNT sübutlarının toplanması və saxlanılması zamanı həmin məlumatların tibbi xarakter daşıyıb-daşımadığı barədə hüquqi mübahisələr yaranır. Əgər bu məlumat tibbi məqsədlə əldə edilməyibsə, o zaman Protokolun qoruma rejimi ona tətbiq edilmir, bu isə fərdin genetik məxfiliyinin hüquqi təminatında boşluq yaradır.

### B. Ümumi Məlumatların Qorunması Reqlamenti

Oviedo Konvensiyası genetik məlumatların qorunmasına dair fundamental hüquqi prinsipləri müəyyənləşdirsə də, Avropa İttifaqı məkanında bu sahənin praktik və institusional tənzimlənməsi əsasən Ümumi Məlumatların Qorunması Reqlamenti (General Data Protection Regulation – GDPR, Regulation (EU) 2016/679) vasitəsilə həyata keçirilir. GDPR genetik məlumatı xüsusi kateqoriyalı şəxsi məlumat kimi təsnif edir və onun emalını *"fərdin bioloji və irsi xüsusiyyətlərini müəyyən edən unikal məlumat"* kimi xarakterizə edir.[16] Bu təsnifat genetik məlumatı adi şəxsi məlumatlardan fərqləndirir və onun emalına qarşı daha yüksək hüquqi qoruma səviyyəsi tətbiq edir. GDPR-in 9-cu maddəsinə əsasən, genetik məlumatların emalı yalnız istisna hallarda və aşağıdakı prinsiplərin təmin olunduğu şərtlərlə mümkündür:

1. fərdin açıq və məlumatlı razılığı;
2. ictimai maraq, elmi və ya tibbi tədqiqat məqsədi;
3. əhəmiyyətli ictimai sağlamlıq maraqları və ya profilaktik tibb kontekstində zərurət.[17]

"Açıq və məlumatlı razılıq" anlayışı GDPR-in 7 və 9-cu maddələrində konkretləşdirilir. "Açıq razılıq" (explicit consent) – fərdin məlumatlarının emalına aydın, konkret və təsdiqləyici ifadə ilə razılıq verməsini nəzərdə tutur.[18] "Məlumatlı razılıq" (informed consent) isə bu razılığın fərdin məlumatın emalının məqsədləri, nəticələri, riskləri və ötürülmə mexanizmləri haqqında tam məlumatlandırılması əsasında verilməsini tələb edir.[19] Yəni fərdin sadəcə razılıq bildirməsi kifayət deyil. O, genetik məlumatın hansı məqsədlə, kim tərəfindən və hansı nəticələr doğura biləcək şəkildə istifadə olunacağını bilməlidir. Bu prinsipin üstün tərəfi ondan ibarətdir ki, fərdin öz genetik məlumatı üzərində qərarvermə səlahiyyəti (autonomiya hüququ)

[15] Yenə orada, mad. 1, 3.
[16] General Data Protection Regulation, preambula (34) (2016). Burada bax: https://eur-lex.europa.eu/legal-content/EN/TXT/PDF/?uri=CELEX:32016R0679 (son baxış 3 mart 2025).
[17] Yenə orada, mad. 32.
[18] Yenə orada, mad. 7.
[19] Yenə orada, mad. 9.

qorunur. Lakin mənfi tərəfi, xüsusilə də praktiki müstəvidə bu razılığın tam məlumatlı şəkildə verilib-verilməməsinin yoxlanmasının çətinliyidir. Çünki genetik tədqiqatlar və ya məlumat bazaları çox vaxt mürəkkəb texnoloji proseslərə əsaslandığından, fərd əslində məlumatının gələcək istifadəsinin bütün mümkün nəticələrini əvvəlcədən qiymətləndirə bilmir. Bu isə "məlumatlı razılıq" prinsipinin formallığa çevrilməsi riskini yaradır.[20] GDPR həmçinin məqsəd məhdudiyyəti (purpose limitation) və məlumatın minimallaşdırılması (data minimisation) prinsiplərini tətbiq etməklə genetik məlumatların sui-istifadəsinin qarşısını almağa çalışır. Bu prinsiplərə görə, genetik məlumatlar yalnız legitim, konkret və qanuni məqsədlər üçün toplanmalı, həmin məqsədlər dəyişdikdə və ya artıq zərurət qalmadıqda emal prosesi dayandırılmalıdır.[21] Qaydalar həmçinin məlumatların qorunması üçün texniki və təşkilati tədbirlərin tətbiqini zəruri hesab edir. Bunlara anonimləşdirmə, məhdud giriş sistemləri və məlumat təhlükəsizliyi üzrə audit prosedurları daxildir. Bu yanaşma genetik məlumatların yalnız fərdi razılıqla toplanmasını deyil, həm də onların saxlanılması və ötürülməsi mərhələsində risklərin azaldılmasını təmin edir.[22] Ümumilikdə isə GDPR-in əsas üstünlüyü ondadır ki, o, genetik məlumatı yalnız biotibbi kontekstdə deyil, həm də məlumat hüququ və insan hüquqları kontekstində qoruyur. Beləliklə, fərdin genetik identifikasiyası ilə bağlı hüquqlar (məsələn, şəxsi həyatın toxunulmazlığı, məlumat üzərində nəzarət, unudulmaq hüququ) ümumi insan hüquqları sisteminə inteqrasiya olunur. Lakin tənqid edilən məqam ondan ibarətdir ki, Qaydalarda genetik məlumatların elmi və kommersiya məqsədli istifadəsi arasındakı sərhədlər kifayət qədər aydın müəyyən edilməmişdir. Bu isə məlumatın yenidən emalına dair legitimlik qiymətləndirilməsini çətinləşdirə və fərdi razılığın hüquqi etibarlılığına təsir göstərə bilər.

GDPR çərçivəsində bioloji məlumat və genetik məlumat anlayışları bir-birindən həm məzmun, həm məqsəd, həm də hüquqi qorunma səviyyəsinə görə fərqlənir. Bioloji məlumat insanın fiziki və ya psixoloji sağlamlığı barədə informasiyanı ifadə edir və orqanizmin cari vəziyyətini xarakterizə edən göstəriciləri, məsələn qan təzyiqi, laborator analiz nəticələri, ürək fəaliyyəti və digər fizioloji parametrləri əhatə edir. Bu məlumatlar, əsasən, tibbi diaqnostika və müalicə məqsədilə toplanır və "sağlamlıqla bağlı məlumat" (health-related data) kimi tənzimlənir.[23] Bioloji məlumat fərdin orqanizmindəki funksional proseslərə dair məlumat verən, lakin onun irsi xüsusiyyətlərini birbaşa müəyyən etməyən məlumat növüdür. Genetik məlumat isə fərdin irsi və ya sonradan qazanılmış genetik xüsusiyyətlərini əks etdirən, bioloji nümunələrin (qan, tüpürcək, toxuma və s.) molekulyar

[20] Yenə orada, mad. 4(11), 7.

[21] Yenə orada, mad. 5.1.(b), 5.1.(c).

[22] Yenə orada, mad. 32.

[23] Yenə orada, mad. 4(15), 9.2.(h).

analizi nəticəsində əldə olunan informasiyadır. Bu məlumatlar insanın fizioloji və sağlamlıq vəziyyəti haqqında unikal bilgilər təqdim edir[24] və fərdin identifikasiyasına, ailə əlaqələrinin müəyyən edilməsinə və irsi xəstəlik risklərinin proqnozlaşdırılmasına imkan verir.[25]

Genetik məlumatların cinayət mühakiməsində istifadəsinin hüquqi bazası isə bioetika və səhiyyə hüququndan deyil, birbaşa insan hüquqları hüququ və cinayət-prosessual hüququn legitim məqsədləri sistemindən irəli gəlir. Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsi bu məsələdə əsas hüquqi dayağı təşkil edir. Həmin maddəyə görə, hər kəsin şəxsi və ailə həyatına hörmət hüququ var, lakin bu hüquqa "ictimai təhlükəsizlik, cinayətlərin qarşısının alınması və ədalət mühakiməsinin həyata keçirilməsi" məqsədi ilə qanunla müəyyən edilmiş, zəruri və proporsional hallarda müdaxilə edilə bilər. Bu normadan çıxan nəticə budur ki, genetik məlumatın cinayət prosessində toplanması və emalı fərdi məxfilik hüququna müdaxilə sayılsa da, bu müdaxilə ictimai maraqla əsaslandırıldığı və qanunla tənzimləndiyi halda hüquqa uyğun sayılır.[26]

Avropa Şurasının Recommendation No. R(92)1 sənədi bu sahədə normativ baza yaradan ilk aktlardan biridir. Burada göstərilir ki, DNT analizlərinin cinayət araşdırmalarında istifadəsi yalnız qanuni istintaq məqsədləri üçün və məhkəmə nəzarəti altında həyata keçirilə bilər.[27] Eyni zamanda bu məlumatların başqa məqsədlərlə istifadəsi və ya qeyri-müəyyən müddətə saxlanması qadağan olunur. Interpol DNA Database Guidelines (2015)[28] və European Network of Forensic Science Institutes (ENFSI) Recommendations (2022) sənədləri də oxşar yanaşmanı qəbul edərək, genetik məlumatların yalnız identifikasiya və sübut təminatı məqsədilə, məxfilik prinsipi çərçivəsində istifadə edilməsini tələb edir.[29]

---

[24] Yenə orada, mad. 4(13).
[25] Yenə orada, preambula (35).
[26] Daha ətraflı bax: European Court of Human Rights, Guide on Article 8 of the European Convention on Human Rights (2021). Burada bax: https://ks.echr.coe.int/web/echr-ks/article-8 (son baxış 3 mart 2025).
[27] Daha ətraflı bax: The Use of Analysis of Deoxyribonucleic Acid (DNA) within the Framework of the Criminal Justice System (1992). Burada bax: https://search.coe.int/cm?i=090000168062df77 (son baxış 3 mart 2025).
[28] Bax: Interpol, Best Practice Principles: Recommendations for the Establishment of a National DNA Database (2015). Burada bax: https://share.google/EgIFL2MaZuxNzWenw (son baxış 3 mart 2025).
[29] Bax: European Union's Internal Security Fund, Best Practice Manual for Human Forensic Biology and DNA Profiling (2022). Burada bax: https://enfsi.eu/wp-content/uploads/2022/12/ENFSI-DNA-BPM-03.pdf (son baxış 3 mart 2025).

## III. Cinayət mühakiməsində genetik məlumatlardan necə və nə üçün istifadə edilir?

Genetik məlumatların geniş şəkildə istifadə olunduğu və bir o qədər də müzakirə olunduğu sahələrdən biri cinayət mühakiməsidir. Bir çox hallarda cinayət mühakiməsində genetik məlumatlardan istifadə dedikdə, cinayət hadisəsi çərçivəsində cinayəti törədən şəxsin bu məlumatlar vasitəsilə müəyyən edilməsi nəzərdə tutulur. Genetik məlumatların cinayət mühakiməsində istifadəsi isə yalnız şübhəlilərin tapılması ilə məhdudlaşmır.

Cinayət mühakiməsində genetik məlumatların təhlili əsasən DNT üzərində qurulu DNT hüceyrələrinin nüvəsində yerləşən və orqanizmin bütün irsi məlumatını daşıyan molekuldur. O, fərdlərin bioloji xüsusiyyətlərini, irsiyyətini və bəzi xəstəliklərə meyilliliyini müəyyən etməyə imkan verir. Bununla yanaşı, genetik məlumat yalnız DNT ilə məhdudlaşmır, o həm də mesajçı və ribozomal RNT (Ribonuklein turşusu), mitoxondrial DNT və digər bioloji materiallarda mövcuddur. RNT gen ifadəsini əks etdirərək hüceyrədə hansı zülalların istehsal olunduğunu göstərir və fərdlərin bioloji profillərinin daha ətraflı təhlilinə imkan verir. Bu müxtəlif daşıyıcılar genetik məlumatın həm identifikasiya, həm də genetik əlaqələrin, soy və ailə münasibətlərinin müəyyənləşdirilməsi üçün geniş imkanlar təqdim edir. Beləliklə, genetik məlumatlar orqanizmdə müxtəlif daşıyıcılar vasitəsilə ötürülür və cinayət mühakiməsində fərdlərin identifikasiyası və əlaqələrinin müəyyənləşdirilməsi üçün əsas rol oynayır.

### A. Cinayət yerindən genetik nümunələrin toplanması və təhlil prosedurları

Genetik məlumatların cinayətlərin açılmasında istifadəsi üçün ilk mərhələ cinayət yerindən nümunələrin: qan, tüklər, tük kökləri, sperma, dəri hüceyrələri və digər bioloji materialların toplanmasıdır. Nümunələrin dəyişməməsi və kontaminasiyaya uğramaması üçün steril alətlərdən istifadə olunur, hər nümunə ayrıca qablaşdırılır və laboratoriyaya göndərilir. Laboratoriya mərhələsində STR (Short Tandem Repeat) və SNP (Single Nucleotide Polymorphism) markerləri vasitəsilə nümunələr analiz edilir. STR markerləri qısa, təkrar olunan nukleotid ardıcıllıqlarındakı fərqləri göstərir və fərdlərin unikal genetik profillərinin yaradılmasını təmin edir. SNP markerləri isə tək nukleotid dəyişikliklərini aşkar edərək fərdlər arasındakı genetik fərqlilikləri müəyyən edir və soy, qohumluq və genetik xəstəlik risklərinin təhlilində mühüm rol oynayır. Cinayət-prosessual baxımdan STR və SNP markerlərinin tətbiqi yüksək əhəmiyyət daşıyır. STR markerləri cinayət araşdırmalarında daha geniş istifadə olunur, çünki fərdlər arasında yüksək fərqlilik göstərir və məlumat bazalarında müqayisə üçün uyğundur.

SNP-lər isə genetik soy və ailə əlaqələrinin müəyyən edilməsində, həmçinin DNT axtarışları və məhkəmə tədqiqatlarında əsas vasitə kimi çıxış edir.[30]

Digər bir mərhələ DNT profilinin müqayisəsi və interpretasiyasıdır. Profil milli və beynəlxalq DNT verilənlər bazaları ilə müqayisə edilir. Belə ki, cinayətkarın buraxdığı DNT izləri toplanaraq STR və ya SNP markerlərinə əsaslanan profillər yaradılır. Bu profillər hüquq-mühafizə orqanlarının milli DNT verilənlər bazalarında saxlanılır və cinayət işlərinin tez həllinə kömək edir. Məsələn, ABŞ-də Milli DNT İndeksi (NDIS) və CODIS sistemi 1998-ci ildən fəaliyyət göstərir və 20,6 milyon STR profilini əhatə edir, Böyük Britaniyada isə 1995-ci ildən milli DNT verilənlər bazasında 7,1 milyon STR profili mövcuddur. Üçüncü tərəf şirkətlər də, məsələn AncestryDNA (ABŞ, 2012, SNP, 23 milyon profil), 23andMe (ABŞ, 2006, SNP, 14 milyon profil) və MyHeritage (İsrail, 2003, SNP, 7,4 milyon profil) SNP markerlərinə əsaslanan profillər yaradır. Bu bazalar cinayət araşdırmalarında hüquq-mühafizə orqanları üçün mühüm resurs kimi çıxış edir, eyni zamanda transsərhəd əməkdaşlıqda da rol oynayır.[31] Həmçinin onu da vurğulamaq lazımdır ki, hüquq-mühafizə orqanlarının imkanlarından asılı olaraq, əgər səlahiyyətli şəxslər sözügedən bazalarla işləyərkən uyğunluq tapmazlarsa, o zaman onlar müvafiq qanunvericiliklə dəstəkləndiyi təqdirdə, kommersiya laboratoriyalarından da istifadə edə bilərlər. GEDmatch PRO, FamilyTreeDNA (FTDNA) və DNA Justice öz databazalarının bu məqsədlə istifadəsinə açıq şəkildə icazə vermişdir. Bununla belə, bütün özəl şirkətlər hüquq-mühafizə orqanlarının cinayət araşdırmalarında öz DNT məlumat bazalarından istifadə etməsinə razılıq vermir.

Genetik məlumatların hüquqi baxımdan təhlükəsizliyini təmin etmək üçün texniki təhlükəsizlik tədbirləri əsas rol oynayır. Bu tədbirlərə nümunə olaraq məlumatlar anonimləşdirilə və şifrələnə bilər ki, yalnız ekspertizaya və hüquq-mühafizə orqanlarına aid məqsədlər üçün istifadə olunsun. Bu yanaşma həmçinin beynəlxalq standartlara uyğun olaraq, şəxslərin genetik məlumatlarının gizliliyini təmin edir və hüquqi mübahisələrdə əsaslı müdafiə mexanizmlərinin mövcud olmasına şərait yaradır. Eyni zamanda məlumat bazalarına girişin məhdudlaşdırılması və girişlərin qeydiyyatının aparılması məlumatların təhlükəsizliyini artırır, eləcə də məlumatların pozulması və ya icazəsiz paylaşılması hallarında məsuliyyətin müəyyənləşdirilməsini mümkün edir.[32]

---

[30] Roland Ah van Oorschot et al., *Forensic Trace DNA: A Review*, 1 Investigative Genetics 1, 14 (2010).

[31] Chang Lu et al., *A Survey of Direct-to-Consumer Genotype Data, and Quality Control Tool (GenomePrep) for Research*, 19 Computational and Structural Biotechnology Journal 3747, 3749 (2021).

[32] Bax: S. and Marper v. The United Kingdom, ECtHR No. 30562/04, 30566/04 [bundan sonra S. and Marper işi] (2008). Burada bax: https://hudoc.echr.coe.int/fre?i=001-90051 (son baxış 3 mart 2025).

## B. Cinayət mühakiməsində genetik məlumatlardan istifadənin üstünlükləri və riskləri

Genetik məlumatlar istifadənin üstünlüyü ilə bağlı ilk olaraq vurğulamaq lazımdır ki, xüsusilə STR və SNP profilləri, müasir cinayət mühakiməsində ən güclü sübut vasitələrindən biri kimi qəbul olunur. Bu məlumatlar insanın genetik quruluşunda yüksək dərəcədə fərdiləşmiş və dəyişməz göstəricilər olduğu üçün həm fərdlərin bir-birindən ayırd edilməsində, həm də müəyyən hadisələrin hüquqi baxımdan araşdırılmasında mühüm rol oynayır.[33]

Hüquq-mühafizə orqanları üçün ən mühüm üstünlüklərdən biri də cinayət yerində tapılan naməlum DNT nümunələrinin identifikasiyası imkanının yaranmasıdır. Hadisə yerindən toplanan DNT nümunələri milli və beynəlxalq genetik məlumat bazalarında saxlanılan profillərlə müqayisə edilə bilər. Bu cür müqayisələr nəticəsində, nümunənin sahibinin kimliyi, ya da onun yaxın bioloji qohumları müəyyən edilə bilər. Bu metod, həm də residivistlərin, yəni əvvəllər cinayət törətmiş şəxslərin yenidən cinayət törətməsi halında onların daha asan aşkarlanmasına şərait yaradır. Əvvəlki cinayətlərdən toplanmış DNT məlumatları ilə yeni hadisələrdəki nümunələr arasında əlaqə qura bilirlər. Məhz elə bu səbəbdən də bəzən cinayətkar məlum olduğu halda da həmin şəxsin genetik məlumatları alınır, yəni bir növ məqsəd maksimum dərəcədə ümumilikdə cinayətə yaxınlığı olan şəxslərə əlçatımlılığı təmin etməkdir. Beləliklə, həm hüquq-mühafizə orqanları üçün istintaq prosesi daha sürətli irəliləyir, həm də cinayətkarın cəmiyyət üçün yaratdığı real təhlükəni daha tez aradan qaldırmaq imkanı yaranır.[34]

Bir çox hallarda genetik məlumatların saxlanması və istifadəsi, əvvəllər səhvən məhkum edilmiş şəxslərin bəraət qazanmasına və illərlə həbsdə qalmış təqsirsiz şəxslərin azadlığa çıxmasına imkan yaratmışdır. Məsələn, cinayət yerindən götürülmüş bioloji nümunələrin sonradan DNT məlumat bazaları ilə müqayisəsi nəticəsində, əvvəllər yanlış şəxsə aid edilməsi aşkarlanmış, ittihamlar aradan qaldırılmış və həqiqi cinayətkarlar müəyyən edilmişdir. Bu proses həm ədalətin bərpası, həm də hüquq-mühafizə orqanlarının etibarlılığının artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, genetik sübutların istifadəsi hüquq sistemində prosedur şəffaflığını təmin edir və məhkəmə qərarlarının elmi əsaslarla verilməsinə şərait yaradır. Əvvəllər yalnız şahid ifadələrinə, qismən sübutlara və ya şübhəli fərziyyələrə əsaslanan məhkəmə qərarları, DNT testlərinin tətbiqi ilə daha dəqiq və obyektiv şəkildə qiymətləndirilə bilir. Bu yanaşma həm də

[33] Saisha Nayyer & A K Jaiswal, *DNA Profiling in Forensic Investigation*, 8 IP International Journal of Forensic Medicine and Toxicological Sciences 14, 16 (2023).
[34] Daha ətraflı bax: Anne Sofie Tegner Anker et al., *The Effects of DNA Databases on the Deterrence and Detection of Offenders*, 13 American Economic Journal: Applied Economics 194 (2021).

hüquqi səhvlərin təkrarlanmasının qarşısını alır, təqsirsiz şəxslərin hüquqlarını qoruyur və məhkəmə sisteminə qarşı ictimai etimadı artırır.[35]

Bundan əlavə, genetik məlumat bazaları itkin düşmüş şəxslərin və naməlum insan qalıqlarının identifikasiyası üçün də mühüm əhəmiyyət daşıyır. Məsələn, INTERPOL tərəfindən həyata keçirilən "I-Familia" layihəsi bu istiqamətdə beynəlxalq miqyasda fəaliyyət göstərir. Bu layihə müxtəlif ölkələrin DNT verilənlər bazalarını birləşdirərək, itkin şəxslərin ailə üzvlərinin genetik profilləri ilə naməlum qalıqlar arasında uyğunluq axtarışı aparır.[36]

Cinayət mühakiməsində genetik məlumatlardan istifadə cinayət mühakimə icraatını aparanlar və cəmiyyətin digər fərdləri üçün üstünlüklər yaratsa da, həmçinin cinayət prosesi çərçivəsində genetik məlumatları alınan şəxslər və onların qohumları üçün ciddi risklər də törədə bilir. Belə ki, cinayət əsnasında yalnız şübhəlinin deyil, həm də onun qohumlarının genetik materialı aşkar olunduqda, ailəvi DNT uyğunluğu vasitəsilə şəxs barəsində ilkin ehtimal formalaşdırmaq mümkündür. Bu kimi halları nəzərə alaraq cinayət mühakimə icraatı zamanı əslində cinayət törətməkdə şübhəli və təqsirləndirilən şəxs qismində olmayan şəxslərin belə genetik məlumatları əldə edilə, saxlanıla bilir. Yəni, DNT məlumat bazaları təkcə cinayətkarların deyil, həmçinin onların yaxın qohumlarının da genetik profillərini ehtiva edir.[37] Bu yanaşma texniki baxımdan effektiv olsa da, etik və hüquqi aspektlər baxımından mübahisəlidir. Bu situasiyada şəxsi məlumatların məxfiliyi və qorunması məsələsi ciddi narahatlıqlara səbəb olur, çünki DNT profillərinin toplanması, saxlanması və analizi zamanı şəxslərin icazəsi olmadan bu məlumatlardan istifadə edilməsi onların hüquqlarının pozulmasına gətirib çıxara bilər.[38]

Cinayət-prosessual tədqiqat zamanı əldə edilmiş genetik məlumatların databazalarda saxlanma müddəti adətən hüquqi normativlərlə tənzimlənir. Məsələn, mövcud ümumi təcrübəyə əsasən təqsirsiz şəxslərin nümunələri müəyyən müddətdən sonra məcburi surətdə silinməli və ya anonimləşdirilməlidir ki, onların şəxsi həyatına müdaxilə minimuma endirilsin. Eyni zamanda, cinayətkarların genetik nümunələri isə uzun müddət saxlanıla bilər ki, təkrar cinayət halları, ardıcıl cinayətlər və ya beynəlxalq istintaq proseslərində istifadə oluna bilsin. Bu müddətlərin

---

[35] Daha ətraflı bax: Gerald Laporte, *Wrongful Convictions and DNA Exonerations: Understanding the Role of Forensic Science*, 179 National Institute of Justice Journal 1 (2018). Burada bax: https://www.ojp.gov/pdffiles1/nij/250705.pdf (son baxış 3 mart 2025).

[36] I-Familia (2021), https://www.interpol.int/How-we-work/Forensics/I-Familia (son baxış 3 mart 2025).

[37] Daha ətraflı bax: Andrey Safonov və digərləri, *Kriminalisticheskoe Issledovanie Dinamicheskikh Priznakov Cheloveka: Istoriya i Sovremennoe Sostoyanie*, 3 Obshestvo i Pravo 250 (2010).

[38] Daha ətraflı bax: Erin Murphy, Inside the Cell: The Dark Side of Forensic DNA (2015).

qanunvericilikdə aydın şəkildə müəyyən olunması məlumatların sui-istifadəsinin qarşısını almaq və hüquqi təhlükəsizliyi təmin etmək baxımından vacibdir.

Genetik məlumatların vahid bazalarda toplanması genetik profillərin axtarışı zamanı işimizi nə qədər asanlaşdırsa da, həmin bazalara olan kiberhücumları da aktuallaşdırmış olur. Genetik məlumatlar rəqəmsal verilənlər bazalarında saxlanıldığından, kiber hücumlar nəticəsində şəxsi genetik məlumatların oğurlanması, ictimaiyyətə yayılması və ya sui-istifadəsi mümkün ola bilər. Bu həm hüquqi, həm də etik problemləri daha da kəskinləşdirir, çünki kiberhücumlar nəticəsində məlumatların tam məxfiliyi və təhlükəsizliyi təmin edilə bilmir. Məsələn, 2023-cü ildə 23andMe şirkətinin məlumat bazasına edilən kiberhücum nəticəsində, təxminən 7 milyon istifadəçinin şəxsi və genetik məlumatları oğurlanmışdır. Bu məlumatlar, xüsusilə müəyyən etnik qruplara aid olan istifadəçilər üçün hədəf alınmış və qara bazarda satılmışdır.[39]

## IV. Təhlükəsizlik və şəxsi həyat arasındakı balans necə qorunur?

Göründüyü kimi, genetik məlumatların cinayət mühakiməsində istifadəsinin üstünlükləri çox olduğu kimi, müəyyən riskləri də mövcuddur. Bu risklərdən qaynaqlanan mübahisələrin dəyərləndirilməsi zamanı isə Avropa İnsan Hüquqları Konvensiyası, xüsusilə də şəxsi və ailə həyatının toxunulmazlığını təmin edən 8-ci maddə mühüm əhəmiyyət kəsb edir. Konvensiyanın bu maddəsi şəxsi həyatın, ailə həyatının, evin və yazışmaların qorunmasını təmin edir, hər bir fərdin şəxsi məlumatları və həyat sahələrinə müdaxiləyə qarşı hüquqlarını təsbit edir və dövlətləri bu hüquqlara hörmət etməyə məcbur edir.

Bu norma yalnız dövlətin müdaxiləsindən qorunma deyil, həm də dövlətlərin şəxsi həyatın məxfiliyini təmin etmək üçün müsbət tədbirlər görmək kimi pozitiv öhdəliyini əhatə edir.[40] AİHM-in təfsirinə görə, "şəxsi həyat" anlayışı insanın kimliyini, fiziki və psixoloji bütövlüyünü, şəxsi məlumatlarının məxfiliyini, o cümlədən genetik və biometrik göstəricilərini də əhatə edir. Buna görə də dövlət yalnız qanunla nəzərdə tutulmuş, legitim məqsəd güdən və demokratik cəmiyyətdə zəruri hesab olunan hallarda bu hüquqa müdaxilə edə bilər.[41] Bu hallara milli təhlükəsizlik, ictimai təhlükəsizlik, iqtisadi rifahın qorunması, cinayətlərin qarşısının alınması və başqalarının hüquq və azadlıqlarının təmin edilməsi daxildir. Lakin burada

[39] Allen Blount et al., Understanding the 23andMe Data Breach and Ensuring Cybersecurity (2025), https://www.risk-strategies.com/blog/understanding-the-23andme-data-breach-and-ensuring-cybersecurity?utm_source (son baxış 4 mart 2025).

[40] Bax: Avropa İnsan Hüquqları Konvensiyası, mad. 8 (1950).

[41] Bax: European Court of Human Rights, Guide on the Case-Law of the European Convention on Human Rights, 32 (2021).

əsas tələb odur ki, hər bir müdaxilə mütənasib, qanuni əsaslı və demokratik cəmiyyətin prinsiplərinə uyğun olsun. Bu yanaşma dövlətlər üçün hüquqi çərçivə yaradır, eyni zamanda vətəndaşların şəxsi hüquqlarının qornunmasını təmin edir.

Şəxsi həyatın müdafiəsi fərdin ailəsi, ev şəraiti, yazışmaları və şəxsi məlumatları üzərində tam nəzarətə malik olmasını nəzərdə tutur.[42] Bu hüquq insanların öz həyatlarını istədikləri şəkildə təşkil etmək, şəxsi münasibətlərini və şəxsi məlumatlarını üçüncü şəxslərdən qorumaq imkanını təmin edir. Əks halda, dövlət və ya digər qurumların qanunsuz müdaxiləsi şəxsi azadlıqların pozulmasına, sosial ayrı-seçkiliyə və fərdi hüquqların məhdudlaşdırılmasına gətirib çıxara bilər.

Genetik məlumatların istifadəsi məhz bu baxımdan Konvensiyanın 8-ci maddəsində təsbit olunmuş şəxsi və ailə həyatına hörmət hüququ ilə birbaşa bağlıdır. Bu məlumatlar sadəcə tibbi və ya identifikasiya xarakteri daşımır, həm də fərdin bioloji kimliyi, irsi xüsusiyyətləri və ailə üzvləri ilə genetik bağlılığı barədə ən həssas informasiyanı özündə ehtiva edir.[43] AİHM dəfələrlə vurğulamışdır ki, belə məlumatların toplanması, saxlanması və istifadəsi, xüsusən də dövlət orqanları tərəfindən fərdin iradəsinə zidd aparıldıqda şəxsi həyata ciddi müdaxilə təşkil edir. Konvensiyanın tətbiqi dövlətlərə yalnız müdaxilədən çəkinmək deyil, həm də genetik məlumatların sui-istifadəsinin qarşısını almaq üçün effektiv hüquqi və institusional mexanizmlər yaratmaq öhdəliyi yükləyir. Bu yanaşma cinayət proseslərində genetik məlumatların istifadəsini təkcə sübut toplama vasitəsi deyil, şəxsi həyatın toxunulmazlığına toxunan fundamental hüquqi məsələ kimi dəyərləndirməyə imkan verir.[44]

Cinayət hüququ kontekstində AİHM-in təcrübəsi göstərir ki, genetik məlumatların istifadəsi dövlətin cinayətlərin qarşısını almaq və ədalətli təqib aparmaq maraqları ilə fərdlərin şəxsi həyatlarının qorunması arasında incə tarazlıq tələb edir. Bu balansı təmin etmək üçün Məhkəmə dövlətlərin atdığı tədbirlərin qanuniliyini, legitimliyini və proporsionallığını ciddi şəkildə qiymətləndirir. Konvensiya mətnində birbaşa ifadə olunmamasına baxmayaraq, genetik məlumatların şəxsi həyata dair hüquqlar çərçivəsində qorunması AİHM-in 8-ci maddəsinin təfsiri əsasında həm fərdi, həm də institusional müstəvidə xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bu müddəalar AİHM-in müvafiq işlərə yüksək standartlarla baxmasına şərait yaradır, üzv dövlətlərin milli hüquq sistemlərinin inkişafına və insan hüquqlarına daha həssas yanaşmasına təkan verir. Ən əsası isə, Konvensiya fərdlərə yalnız milli məhkəmələrdə deyil, həm də AİHM qarşısında iddia qaldırmaq imkanı

[42] Yuxarıda istinad 40, mad. 8(1).
[43] Yuxarıda istinad 32, § 66.
[44] Ciubotaru v. Moldova, ECtHR No. 27138/04, § 49 (2010). Burada bax: https://hudoc.echr.coe.int/eng?i=001-98445 (son baxış 3 mart 2025).

yaradır ki, bu da vətəndaşların genetik məlumatların qorunması ilə bağlı effektiv hüquqi müdafiə əldə etməsini təmin edir.[45]

Bu səbəbdən genetik məlumatlarla bağlı AİHM işlərinə baxılması müasir hüquq elmində şəxsi həyatın müdafiəsinin sərhədlərini və dövlətin müdaxilə imkanlarının legitim çərçivəsini müəyyənləşdirmək baxımından fundamental əhəmiyyət kəsb edir.

İlk olaraq qeyd etmək lazımdır ki, AİHM-in *S. and Marper* işi genetik və biometrik məlumatların saxlanılması ilə bağlı hüququn inkişafında dönüş nöqtəsi olmuşdur. Məhkəmə bu işdə ilk dəfə olaraq bəraət almış və ya barəsində ittiham götürülmüş şəxslərin barmaq izləri və DNT nümunələrinin məhdudiyyətsiz və fərq qoyulmadan saxlanılmasını (blanket and indiscriminate retention) Konvensiyanın 8-ci maddəsi baxımından yolverilməz hesab etmişdir. Bu yanaşma hüquq elminə yeni doktrinal əsas gətirdi: dövlət cinayətkarlığın qarşısını almaq məqsədilə genetik məlumatlardan istifadə edə bilər, lakin saxlanma rejimi fərdin statusuna, cinayətin ağırlığına, məlumatların saxlanma müddətinə və silinmə və ya yenidən baxılma mexanizmlərinin mövcudluğuna görə dərəcələndirilməlidir. Beləliklə, qərar hüquqi doktrinada "saxlanma yalnız zəruri, müddətli və nəzərdən keçirilə bilən olmalıdır" prinsipi ilə nəticələndi.[46]

İşin digər fundamental töhfəsi "margin of appreciation" (dövlətlərə tanınan qiymətləndirmə sərbəstliyi) prinsipinin biometrik və genetik məlumat sahəsində daraldılması olmuşdur. Məhkəmə vurğulamışdır ki, şəxsi həyatın nüvəsinə aid yüksək həssaslıq dərəcəsi daşıyan məlumatlarda dövlətin geniş diskresion səlahiyyəti hamıya eyni qaydanın tətbiq edildiyi siyasətlə əsaslandırıla bilməz, qanunverici mütləq olaraq şəffaf meyarlar müəyyən etməli, saxlanma müddətini dəqiq sərhədləndirməli, silinmə imkanlarını təmin etməli və fərdi hallara uyğunlaşdırılmış mexanizmlər tətbiq etməlidir.[47]

Məhkəmə həmçinin genetik məlumatın yalnız fərdi identifikasiya vasitəsi olmadığını, eyni zamanda ailəvi və irsi əlaqələr haqqında informasiya verdiyini vurğulayaraq, onu klassik şəxsi məlumatlardan fərqli olaraq daha yüksək həssaslıq dərəcəsinə malik kateqoriya kimi qiymətləndirdi. Bu, hüquqi doktrinada genetik məlumatların "proqnostik və nəsil-yönümlü" təbiətinin tanınmasına gətirib çıxardı və elmi diskussiyalarda onların etik və hüquqi qorunmasının sərtləşdirilməsi zərurətini ortaya qoydu. Ərizəçilərdən birinin yetkinlik yaşına çatmaması faktı isə AİHM-in uşaq hüquqlarına xüsusi yanaşmasını gücləndirdi. Beləliklə, doktrinada "minor-sensitive proportionality" yanaşması formalaşdı: eyni saxlanma rejimi uşaqlar üçün

45 Yuxarıda istinad 32, § 112.

46 Yenə orada, § 67-77, 119-125.

47 Yenə orada, § 102-126.

daha ağır müdaxilə hesab olunur və qanunvericilik onlara qısa saxlanma müddətləri, mütəmadi baxış və asan silinmə imkanları təqdim etməlidir.

*S. and Marper* işi bununla yanaşı, dövlətin yalnız neqativ öhdəliyini deyil, həm də pozitiv öhdəliklərini qabartdı. Belə ki, dövlət saxlanma siyasətinin aydın və proqnozlaşdırıla bilən hüquqi bazasını yaratmalı, müstəqil nəzarət orqanları formalaşdırmalı, fərdi müraciət imkanlarını təmin etməli və cinayətlərin ağırlığına görə differensial yanaşma tətbiq etməlidir. Bu çərçivə Avropa məkanında geniş qanunvericilik islahatlarına səbəb olmuş, polis tərəfindən toplanmış genetik məlumatların silinməsi və periodik baxış prosedurları normaya çevrilmişdir. Məhkəmə həmçinin texnologiyanın sürətli inkişafını nəzərə alaraq məqsəd məhdudluğu, məlumat minimallaşdırması, saxlanma müddətinin məhdudluğu və ikinci istifadəyə qadağa kimi texnoloji neytral prinsiplər irəli sürmüşdür. Bu, hüquq nəzəriyyəsində "by-design proportionality" anlayışının, yəni sistemin memarlığının hüquq pozuntularının qarşısını alacaq şəkildə qurulması yanaşmasının formalaşmasına yol açdı. "By-design proportionality" (dizaynla mütənasiblik) anlayışı hüquqi mütənasiblik prinsipinin yalnız sonrakı qiymətləndirmə mərhələsində deyil, sistemin quruluşunda və texnoloji memarlığında əvvəlcədən nəzərə alınmasını nəzərdə tutur. Bu yanaşmaya görə, hüquqa uyğunluq və fərdi hüquqların qorunması əlavə nəzarət vasitələrinin tətbiqindən asılı olmamalı, sistemin öz dizaynına daxili element kimi yerləşdirilməlidir. Genetik məlumatların işlənməsi sahəsində bu, o deməkdir ki, məlumat bazaları elə qurulmalıdır ki, məqsəd məhdudluğu, saxlanma müddətinin avtomatik olaraq bitməsi, ikinci istifadəyə texniki qadağalar və fərdlərin məlumatlarını silmək və ya düzəltmək hüququnun həyata keçirilməsi əvvəlcədən proqramlaşdırılmış şəkildə təmin olunsun. Beləliklə, mütənasiblik abstrakt hüquqi meyar kimi deyil, praktiki iş mexanizminin ayrılmaz tərkib hissəsi kimi fəaliyyət göstərmiş olacaqdır.[48]

Nəticə etibarilə, *S. and Marper* işi hüquq elmində genetik məlumatların hüquqi statusuna dair üçpilləli strukturu möhkəmləndirdi:

(a) müdaxilənin varlığının tanınması (genetik və biometrik məlumatların şəxsi həyatın əhatəsinə daxil olması);

(b) qanunilik və legitim məqsədin təsdiqi (cinayətkarlığın qarşısının alınması və identifikasiya);

(c) mütənasiblik meyarlarının tətbiqi (müddət məhdudiyyəti, fərqləndirmə, yenidən baxış, silinmə imkanları və uşaq hüquqları üçün əlavə zəmanətlər).

*Aycaguer işi* isə AİHM-in genetik məlumatların saxlanması ilə bağlı formalaşdırdığı doktrinada yeni mərhələ təşkil edir. Ərizəçi kiçik bir nümayiş zamanı polisə qarşı zorakılıq ittihamı ilə inzibati cəriməyə məhkum olunmuş,

[48] Yenə orada, § 112, 125-126.

lakin buna baxmayaraq Fransa qanunvericiliyinə əsasən ondan DNT nümunəsi tələb edilmişdir. Ərizəçi bu tələbə tabe olmaqdan imtina etdiyinə görə ayrıca məsuliyyətə cəlb olunmuş və məsələ AİHM-ə daşınmışdır. Burada əsas hüquqi sual belə idi: yüngül cinayət və ya inzibati pozuntu hallarından sonra şəxslərin genetik məlumatlarının məcburi şəkildə DNT məlumat bazasına daxil edilməsi şəxsi həyata müdaxilənin qanuniliyi və mütənasibliyi baxımından əsaslandırıla bilərmi?

Məhkəmə qeyd etmişdir ki, genetik məlumatların saxlanması dövlətin ictimai təhlükəsizlik maraqlarını qorumaq məqsədi daşısa da, Fransa qanunvericiliyi bu sahədə fərqləndirmə aparmırdı. Yəni ağır cinayətlər ilə yüngül pozuntular arasında heç bir hüquqi sərhəd qoyulmadan bütün şəxslər eyni rejimə tabe tutulurdu. Bu eyni yönümlü və sistemli yanaşma, AİHM-in ifadəsi ilə, şəxsi həyata müdaxiləni həddindən artıq genişləndirir və 8-ci maddə ilə ziddiyyət təşkil edir. Məhkəmə vurğuladı ki, genetik məlumatlar adi identifikasiya vasitəsi deyildir, onlar şəxsin irsi və bioloji xüsusiyyətlərini əks etdirir və kollektiv nəticəlilik daşıyır. Buna görə də onların saxlanması yalnız cinayətin xarakteri və ağırlığına uyğun, fərdiləşdirilmiş və müddətlə məhdudlaşdırılmış rejimlə əsaslandırıla bilər.

Bu qərarın hüquqi yeniliyi ondan ibarətdir ki, AİHM genetik məlumatların saxlanması ilə bağlı mütənasiblik prinsipini daha da sərtləşdirərək onu yalnız bəraət almış şəxslərə münasibətdə deyil, yüngül cinayət törətmiş şəxslərə münasibətdə də tətbiq etdi. Beləliklə, məhkəmə göstərdi ki, ictimai maraq naminə tətbiq edilən blanket siyasətlər, cinayətin ağırlığından asılı olmayaraq, mütənasiblik testindən keçmir. Bu yanaşma hüquq elminə iki mühüm töhfə verdi: bunlardan birincisi, genetik məlumatların hüquqi statusunun yüksək həssaslıq daşıyan məlumatlar kateqoriyasına aid edilməsi, ikincisi isə dövlətlərin genetik məlumat siyasətlərində differensial və proporsional yanaşmanı təmin etmələrinin normativ tələbə çevrilməsidir. Bu nəticələr *S. and Marper* işində əsas prinsiplər səviyyəsində formalaşdırılmışdı, lakin *Aycaguer* işi həmin prinsipləri daha konkret və tətbiqi səviyyəyə keçirdi. Əgər *S. and Marper* işi dövlətin genetik məlumatların saxlanılması siyasətinə ümumi proporsionallıq və fərdiləşmə tələblərini müəyyənləşdirmişdisə, *Aycaguer* işi bu prinsiplərin pozulmasının konkret nəticələrini və fərdin hüquqlarına məhkəmə müdafiəsi öhdəliyini vurğuladı.

Yəni *Aycaguer* işi hüquq doktrinasında belə bir nəticə formalaşdırdı: genetik məlumatların saxlanması yalnız ictimai təhlükəsizliyi təmin etmək üçün zəruri hallarda mümkündür və bu zərurət cinayətin xarakterinə uyğun, mərhələli, məhdud müddət çərçivəsində və nəzərdən keçirilə bilən siyasət əsasında həyata keçirilməlidir.[49]

[49] Aycaguer v. France, ECtHR No. 8806/12 [bundan sonra *Aycaguer işi*] (2017). Burada bax: https://hudoc.echr.coe.int/eng?i=001-175007 (son baxış 5 mart 2025).

AİHM-in bu sahədəki əsas presedentlərindən olan *Peruzzo and Martens işində* Məhkəmə daha fərqli nəticəyə gəlmişdir. Burada ərizəçilər məhkum edilmiş şəxslər idi və onların DNT nümunələri Almaniya qanunvericiliyinə uyğun olaraq milli bazada saxlanılırdı. Ərizəçilər isə bunu şəxsi həyata, yəni Konvensiyanın 8-ci maddəsinə zidd müdaxilə kimi qiymətləndirirdilər. AİHM müdaxilənin mövcudluğunu qəbul etsə də, Almaniya hüquqi rejiminin blanket xarakter daşımadığını, yalnız ciddi cinayətlər üzrə tətbiq edildiyini, müddət məhdudiyyətlərinin və silinmə prosedurlarının mövcud olduğunu, həmçinin məhkəmə nəzarəti imkanlarının təmin edildiyini vurğuladı. Belə ki, ilk növbədə, Almaniyada DNT-nin saxlanması avtomatik deyildi, yalnız məhkəmə tərəfindən risk qiymətləndirilməsi aparıldıqdan sonra qərar verilirdi. İkincisi, istifadə dairəsi ciddi məhdud idi, yalnız identifikasiya məqsədli markerlər toplanır, xəstəlik və ya digər həssas genetik məlumatlar istisna edilirdi. Üçüncüsü, məlumatların silinməsi və ya yenidən baxılması nəzərdə tutulurdu, yəni sistem açıq şəkildə müddətsiz deyildi. Nəhayət, ərizəçilərin bu tədbirləri milli məhkəmələr qarşısında mübahisələndirmək imkanı mövcud idi.

Bu səbəbdən, ərizələr əsassız hesab edilərək rədd edildi. Məhkəmə burada göstərdi ki, genetik məlumatların saxlanması blanket və müddətsiz olduqda pozuntu təşkil edir, lakin differensial, məhdudiyyətlərlə və balanslaşdırıcı mexanizmlərlə təmin olunmuş halda legitim ola bilər.[50]

Bu arqumentlər əsasında AİHM bu nəticəyə gəldi ki, Almaniyanın sistemi *S. and Marper* işindəki vəziyyətdən kəskin şəkildə fərqlənir. *S. and Marper* işində bəraət almış şəxslərin belə DNT-si müddətsiz və kateqoriyasız saxlanılırdı ki, bu da qeyri-mütənasib hesab olunmuşdu. *Peruzzo and Martens* işində isə fərdiləşdirilmiş və təminatlı rejim mövcud olduğuna görə ərizələr "açıq-aşkar əsassız" sayılaraq qəbul edilmədi.

Kritik aspektdən *Peruzzo and Martens* işi ikili xarakter daşıyır. Bir tərəfdən, o, dövlətlərin təhlükəsizlik maraqlarına hörmət edir və fərdiləşdirilmiş risk əsaslı mexanizmləri legitimləşdirir. Digər tərəfdən, qərar "decision" statusunda qəbul edildiyi üçün normativ gücü zəifdir və bəzi dövlətlər bunu geniş şəkildə şərh edərək məhkumlar üzrə çox geniş saxlanma siyasətlərini əsaslandırmağa cəhd edə bilərlər. Bu isə AİHM-in genetik məlumatların saxlanması sahəsində vahid standart yaratmaqda tərəddüdünü göstərir.

*Gaughran işi* də Avropa İnsan Hüquqları Məhkəməsinin biometrik və genetik məlumatların saxlanması ilə bağlı presedent hüququnda mühüm dönüş yaratmış qərarlardan biridir. Ərizəçi Gaughran içkili vəziyyətdə avtomobil idarə etdiyinə görə məhkum edilmiş və bu zaman ondan barmaq izləri, DNT profili və fotoşəkil götürülmüşdü. Birləşmiş Krallığın

[50] Peruzzo and Martens v. Germany, ECtHR No. 7841/08, 57900/12, § 39-45 [bundan sonra *Peruzzo and Martens işi*] (2013). Burada bax: https://hudoc.echr.coe.int/eng?i=001-121998 (son baxış 4 mart 2025).

qanunvericiliyi belə məlumatların qeyri-müəyyən müddətə saxlanılmasına imkan verirdi və yalnız polis rəhbərliyinin diskresiyası əsasında silinmə mexanizmi nəzərdə tutulurdu. Ərizəçi bunu şəxsi həyata hörmət hüququnun pozulması kimi qiymətləndirərək Məhkəməyə müraciət etdi.

Məhkəmə əvvəlcə təsdiqlədi ki, biometrik və genetik məlumatların toplanması və saxlanılması 8-ci maddə baxımından şəxsi həyata müdaxilədir. Müdaxilənin qanuni əsası və legitim məqsədi (cinayətlərin qarşısının alınması) mövcud idi, lakin əsas mübahisə mütənasiblik üzərində quruldu. AİHM qeyd etdi ki, tətbiq edilən rejim fərdlərin statusundan asılı olmayaraq avtomatik və blanket xarakter daşıyır. Məlumatların silinməsi üçün effektiv, məcburi və dövri nəzərdən keçirmə mexanizmi yoxdur. Bu isə proporsionallıq testinə uyğun gəlmirdi.

Qərarın müsbət tərəfi ondan ibarətdir ki, AİHM açıq şəkildə tanıdı ki, məhkum olunmaq belə, şəxsin biometrik məlumatlarının limitsiz saxlanmasını avtomatik legitimləşdirə bilməz. Bu yanaşma ilə Məhkəmə "məhkum = qeyri-məhdud nəzarət obyekti" yanaşmasını rədd etdi və dövlətlərin mülahizə sərbəstliyini daraltdı. Bundan başqa, fərdiləşdirilmiş risk qiymətləndirilməsinin və konkret müddət məhdudiyyətlərinin vacibliyi vurğulandı.

Digər tərəfdən, qərarın çatışmazlıqları da diqqətdən yayınmır. Əvvəla, AİHM konkret maksimal müddət standartı müəyyən etmədi və beləliklə, dövlətlərə geniş şərh imkanı saxladı. İkincisi, Məhkəmə alternativ hüquqi modelin necə qurulmalı olduğunu dəqiq göstərmədi, yalnız mövcud sistemin "indiscriminate" xarakterini tənqid etdi. Bu isə normativ qeyri-müəyyənlik yaradır və gələcək tətbiqlərdə dövlətlərin sərbəstliyini artırır.[51]

Qərarın yenilikləri isə doktrinal baxımdan aydın görünür: *S. and Marper* işində bəraət almış şəxslərin məlumatlarının müddətsiz saxlanması pozuntu sayılmışdı. *Peruzzo and Martens* işində fərdiləşdirilmiş risk qiymətləndirilməsi ilə məhkumların məlumatlarının saxlanmasına yol verilmişdi. *Gaughran* isə göstərdi ki, hətta məhkum olunmuş şəxslər üzrə də avtomatik və müddətsiz saxlanma Konvensiyanın 8-ci maddəsinə ziddir.

Beləliklə, AİHM bu işlə biometrik və genetik məlumatların qorunması sahəsində üçpilləli hüquqi ardıcıllıq formalaşdırdı:

1) blanket (ümumi və fərqləndirmədən tətbiq olunan) rejimlər yolverilməz hesab olunur;
2) fərdiləşdirilmiş və müddətlə məhdudlaşdırılmış rejimlər məqbul sayılır;
3) müddətsiz və fərqləndirməsiz rejimlər isə Konvensiyanın 8-ci maddəsinin pozuntusu kimi qiymətləndirilir.

Burada "blanket rejim" anlayışı yalnız müddətsiz və fərqləndirməsiz rejimləri deyil, həm də differensial yanaşmadan məhrum olan bütün

[51] Gaughran v. the United Kingdom, ECtHR No. 45245/15, § 78-95 [bundan sonra *Gaughran işi*] (2020). Burada bax: https://hudoc.echr.coe.int/fre?i=001-200817 (son baxış 4 mart 2025).

sistematik və avtomatik tətbiq rejimlərini əhatə edir. Yəni blanket rejimlərdə dövlət bütün fərdlərə eyni qaydanı istisnasız tətbiq edir, fərdin statusu, cinayətin xarakteri və ya ictimai təhlükəlilik dərəcəsi nəzərə alınmır. Bu səbəbdən "blanket rejim" anlayışı "fərqləndirməsiz və müddətsiz rejim"i özündə bir altkateqoriya kimi birləşdirir, lakin ondan daha geniş məna kəsb edir. Bu yanaşma insan hüquqları ilə dövlətin təhlükəsizlik maraqları arasında daha incə balansın qurulmasına xidmət edir.

Nəticə etibarilə, bu dörd əsas qərar: *S. and Marper* (2008), *Peruzzo and Martens* (2013), *Aycaguer* (2017) və *Gaughran* (2020) AİHM-in genetik və biometrik məlumatların saxlanmasına dair formalaşdırdığı hüquqi yanaşmanı ardıcıl şəkildə sərtləşdirib. Bu xəttin bütöv məntiqini belə ümumiləşdirə bilərik: AİHM-in mövqeyinə əsasən, ilk olaraq, genetik və biometrik məlumatlar ən həssas məlumatlar hesab olunur. Onların toplanması və saxlanması fərdin kimliyinə, şəxsi həyatına birbaşa təsir etdiyindən dövlətlərin sərbəst qərar vermə imkanları dar çərçivədədir. Bu səbəbdən proporsionallıq testinə daha sərt yanaşma tətbiq edilir. Məhkəmə xüsusilə *S. and Marper* və *Gaughran* işlərində vurğuladı ki, bu məlumatların saxlanılması yalnız ciddi əsaslandırma və güclü təminatlarla mümkündür.[52] İkincisi, müddətsiz və fərqləndirməsiz saxlanma qəbuledilməzdir. İstər məhkum edilməmiş şəxslərin (*S. and Marper*) məlumatları, istərsə də məhkum olunmuş şəxslərin (*Gaughran*) məlumatlarının limitsiz və avtomatik saxlanması hüquqa zidd sayılır.[53] Eləcə də cinayət qanunvericiliyinə əsasən saxlanılan məlumatlar arasında da törədilən əməlin xarakteri və əlaqəli xüsusiyyətlər baxımından fərqləndirmə aparılmalı, sözügedən əməlin ictimai təhlükəsizlik üçün maneə yaratmaq potensialından asılı olaraq genetik məlumatların toplanıb-toplanmamasına qərar verilməlidir. Məhkəmə də qeyd edir ki, differensial olmayan saxlanma siyasəti insanı daimi nəzarət altında saxlayır və heç bir fərdi vəziyyəti nəzərə almır. Yalnız o halda saxlanma qanuni sayıla bilər ki, sistem fərdiləşdirilmiş risk qiymətləndirilməsi əsasında qurulsun və ancaq identifikasiya məqsədi daşısın, müddət həddi müəyyən edilsin, dövri nəzərdən keçirmə aparılsın, məlumatların silinməsi üçün real imkanlar olsun və bütün bunlar məhkəmə nəzarəti ilə təmin edilsin.[54] Üçüncüsü, əgər məlumat bazası həddən artıq geniş qurulubsa və fərqləndirmə, müddət, silinmə kimi təminatlar zəifdirsə, fərdləri belə bir sistemə məcburi qoşulmağa vadar etmək Konvensiyaya uyğun deyil. Hətta *Aycaguer* işində Məhkəmə göstərdi ki, zəif hüquqi təminatlarla fəaliyyət göstərən sistemə daxil olmaqdan imtina edən şəxsin cəzalandırılması özü-özlüyündə 8-ci maddənin pozuntusudur.[55]

---

[52] Bax: Yuxarıda istinad 32; yuxarıda istinad 51.

[53] Yenə orada.

[54] Bax: Yuxarıda istinad 50.

[55] Bax: Yuxarıda istinad 49.

Daha sonrakı işlərdə AİHM göstərdi ki, məhdud müddətə malik, fərdiləşdirilmiş və nəzarət altında olan saxlanma modelləri qəbul edilə bilər. Məsələn, Almaniya üzrə verilmiş qərarlarda beşillik saxlama müddəti və müntəzəm yenidən baxış imkanları mövcud olduğundan pozuntu kimi tanınmamışdır.[56] Bu göstərir ki, Məhkəmənin məqsədi tam qadağa tətbiq etmək deyil, dövlətləri qanunvericiliklərini Konvensiya standartlarına uyğun şəkildə formalaşdırmağa təşviq etməkdir. Bu çərçivədən kənar hər hansı dövlət siyasəti AİHM-in *S. and Marper– Peruzzo and Martens– Aycaguer–Gaughran* ardıcıllığında qurduğu hüquqi balansı pozur və pozuntu riskini artırır.

## V. Cinayət mühakiməsində genetik məlumatların istifadəsinin Azərbaycan qanunvericiliyi çərçivəsində tənzimlənməsi

Azərbaycan Respublikasında cinayət mühakiməsində genetik məlumatların istifadəsi bir neçə normativ-hüquqi aktla tənzimlənir. Konstitusiyanın 32-ci maddəsi şəxsi və ailə həyatının toxunulmazlığını təmin edir və fərdi məlumatların, o cümlədən genetik məlumatların yalnız qanunla müəyyən olunmuş hallarda toplanmasına imkan verir.[57] Cinayət-Prosessual Məcəllə (bundan sonra – CPM) bioloji nümunələrin götürülməsi və ekspertizanın keçirilməsi ilə bağlı müddəalar vasitəsilə genetik məlumatların sübut kimi istifadəsinə hüquqi əsas yaradır.[58] "Fərdi məlumatlar haqqında" Qanun genetik məlumatları xüsusi kateqoriyalı fərdi məlumat kimi təsnif edir,[59] "Biometrik informasiya haqqında" Qanun[60] isə onların emalı və istifadəsi qaydalarını müəyyən edir. Xüsusi normativ baza kimi "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Qanun məcburi və könüllü qeydiyyat halları, məlumatların toplanması, saxlanılması və istifadəsini tənzimləyir,[61] Nazirlər Kabinetinin 22 aprel 2019-cu il tarixli 188 nömrəli Qərarı isə bioloji materialların götürülməsi, uçotu, saxlanılması, istifadəsi və məhv edilməsi qaydalarını müəyyənləşdirir.[62] Beləliklə, mövcud normativ çərçivə həm ümumi prinsipləri, həm də xüsusi

[56] Bax: Yuxarıda istinad 50.
[57] Azərbaycan Respublikasının Konstitusiyası, mad. 32 (1995).
[58] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, mad. 124-125, 253-255, 273 (2000).
[59] "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu, mad. 2.1.6 (2010).
[60] Daha ətraflı bax: "Biometrik informasiya haqqında" Azərbaycan Respublikasının Qanunu (2008).
[61] Daha ətraflı bax: "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanunu (2018).
[62] Daha ətraflı bax: "Dezoksiribonuklein turşusu (DNT) analizinin aparılması üçün bioloji materialın götürülməsi, onun uçotu, saxlanılması, istifadəsi, verilməsi və məhv edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (2019).

prosedurları müəyyən edərək cinayət mühakiməsində genetik məlumatların istifadəsinə hüquqi əsas yaradır.

Azərbaycan Respublikasında 2018-ci ildən qüvvədə olan "Dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Qanun kriminalistikanın səmərəliliyini artırmaq və şəxsiyyətin dəqiq eyniləşdirilməsi məqsədilə qəbul edilmişdir. Qanun, bir tərəfdən, hüquq-mühafizə orqanlarının fəaliyyətini asanlaşdırmaq üçün normativ baza yaratsa da, digər tərəfdən, insan hüquqlarının müdafiəsi kontekstində bir sıra problemli məsələlər ortaya çıxarır.

Belə ki, Azərbaycan Respublikasının "Dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Qanununun 1.0.5-ci maddəsinə əsasən, genetik məlumat insanın şəxsiyyətini müəyyən etməyə imkan verən dezoksiribonuklein turşusu (DNT) analizinin keçirilməsi ilə əldə edilən məlumatdır. 1.0.9-cu maddəyə görə isə "DNT profili- insan şəxsiyyətinin eyniləşdirilməsinə imkan verən, genetik identifikasiya və verifikasiya məqsədi ilə məlumat bankında toplanılan, saxlanılan, işlənilən və istifadə olunan fərdi məlumatdır. Hüquqi baxımdan bu iki anlayış arasında mühüm fərq mövcuddur: "genetik məlumat" geniş məzmunlu kateqoriya olub, DNT analizindən çıxarılan bütün nəticələri əhatə edə bilər, halbuki "DNT profili" yalnız şəxsiyyətin eyniləşdirilməsi üçün zəruri olan kodlaşdırılmamış markerlərdən ibarət məhdud informasiyadır.[63]

Məhz bu kontekstdə qanunun 2-ci maddəsində istifadə olunan "genetik məlumatlar əsasında" ifadəsi hüquqi qeyri-müəyyənlik yaradır. Əgər norma dar mənada yalnız "DNT profili"nə şamil edilərsə, şəxsin kimliyinin müəyyənləşdirilməsi üçün minimal məlumat toplanır və bu, həm proporsionallıq prinsipinə, həm də şəxsi həyatın toxunulmazlığına uyğundur. Lakin "genetik məlumat" anlayışının geniş şərhi nəticəsində dövlət orqanlarının şəxsin genetik xəstəliklərə meyilliliyi, etnik mənsubiyyəti, sağlamlıq göstəriciləri kimi həssas məlumatları da toplaması və saxlaması ehtimalı yaranır. Bu isə artıq Konstitusiyanın 32-ci maddəsi və Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsi ilə qorunan şəxsi həyatın toxunulmazlığına birbaşa müdaxilədir.

Belə qeyri-dəqiqlik bir sıra hüquqi fəsadlara səbəb olur. Birincisi, hüquqi müəyyənlik prinsipi pozulur, şəxs barəsində hansı məlumatların toplanacağı və saxlanılacağını dəqiq bilmir. İkincisi, proporsional müdaxilə prinsipi zədələnir, çünki identifikasiya üçün kifayət edən DNT profili ilə məhdudlaşmaq əvəzinə daha geniş və həssas məlumatların saxlanılması riski yaranır. Üçüncüsü, diskriminasiya və damğalanma ehtimalı artır: etnik və tibbi göstəricilər saxlanılarsa, bu gələcəkdə sosial münasibətlərdə ayrı-seçkilik üçün istifadə edilə bilər. Nəhayət, bu yanaşma beynəlxalq

[63] Yuxarıda istinad 61, mad. 1.

standartlarla uyğunsuzluq yaradır.[64] Avropa İnsan Hüquqları Məhkəməsi *S. and Marper* və *Aycaguer* işlərində açıq şəkildə vurğulamışdır ki, yalnız identifikasiya üçün minimal genetik profil saxlanıla bilər, profil xaricindəki məlumatların dövriyyədə qalması hüquq pozuntusudur. Mövcud vəziyyətin aradan qaldırılması üçün qanunvericilikdə bir sıra islahatların aparılması zəruridir. İlk növbədə, qanunun 2-ci maddəsindəki "genetik məlumatlar əsasında" ifadəsi "DNT profili əsasında" ilə əvəz olunmalı və bununla da normativ dəqiqlik təmin edilməlidir. Bununla yanaşı, qanunda ayrıca norma ilə təsbit edilməlidir ki, dövlət genom qeydiyyatına yalnız identifikasiya məqsədli profillər daxil edilə bilər, tibbi, irsi və etnik göstəricilərin toplanması və saxlanılması isə qəti qadağan edilməlidir.[65]

Qanunun 12-ci maddəsində dövlət genom qeydiyyatının məqsədləri sırasında "itkin düşmüş şəxslərin axtarışı", "naməlum meyit əsasında identifikasiya" və "şəxsiyyətin başqa üsullarla müəyyən edilə bilmədiyi hallar" kimi legitim məqsədlərlə yanaşı, "cinayətlərin və inzibati xətaların qarşısının alınması" ifadəsinə də yer verilməsi beynəlxalq hüquqi standartlarla ciddi uyğunsuzluq yaradır.[66] Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) *S. and Marper* işində vurğulandığı kimi, genetik məlumatların preventiv məqsədlərlə və fərdiləşdirilməmiş əsas olmadan saxlanılması şəxsi həyata həddindən artıq müdaxilə təşkil edir və Konvensiyanın 8-ci maddəsinə ziddir. Azərbaycan qanunvericiliyində bu ifadənin geniş saxlanılması dövlətə yalnız identifikasiya məqsədindən kənara çıxaraq "ümumi təhlükəsizlik" və profilaktik nəzarət məqsədilə genom bazası yaratmaq imkanı verir.[67]

Bu problem təkcə cinayət kateqoriyasına aid hallarda deyil, inzibati xətalar kontekstində də daha qabarıq şəkildə üzə çıxır. Məsələn, yol hərəkəti qaydalarının pozulması və ya xırda xuliqanlıq hallarında şəxsiyyətin müəyyən edilməsi üçün ənənəvi vasitələr (şəxsiyyət vəsiqəsi, barmaq izi və s.) tam kifayətdir. Belə hallarda DNT profilinin toplanması nə hüquqi zərurət, nə də mütənasiblik prinsipi ilə əsaslandırıla bilər. Əgər qanunun hazırkı redaksiyası tətbiq olunarsa, inzibati məsuliyyət daşıyan şəxslərin də genetik məlumatlarının məhkəmə nəzarəti olmadan bazaya əlavə edilməsi mümkündür ki, bu da AİHM-in *Peruzzo and Martens* işində irəli sürdüyü "blanket saxlanma siyasəti"nin yolverilməzliyi prinsipinə ziddir.[68]

Eyni risklər ağır cinayətlər sahəsində də özünü göstərir. DNT profilinin qəsdən adam öldürmə və ya digər ağır cinayətlər üzrə konkret istintaq zərurəti ilə götürülməsi legitim sayıla bilər. Lakin belə hallarda da məlumatın qeyri-müəyyən müddətə saxlanılması və yaxud avtomatik olaraq qohumların

[64] Daha ətraflı bax: Yuxarıda istinad 61.
[65] Yuxarıda istinad 61, mad. 2.
[66] Yenə orada, mad. 12.
[67] Daha ətraflı bax: Yuxarıda istinad 32.
[68] Daha ətraflı bax: Yuxarıda istinad 50.

və digər şəxslərin də bazaya daxil edilməsi blanket yanaşmadır və *Gaughran* işində vurğulandığı kimi, təqsirsizlik prezumpsiyasını zəiflədərək şəxsləri potensial risk qrupu kimi damğalayır. Bu isə yalnız fərdi hüquqların pozulmasına deyil, həm də cəmiyyətin dövlət institutlarına inamının azalmasına gətirib çıxarır. Beləliklə, Azərbaycan qanunvericiliyində "cinayətlərin və inzibati xətaların qarşısının alınması" ifadəsi həm normativ texniki qüsur doğurur, həm də sui-istifadə üçün real potensial yaradır. Beynəlxalq standartlara uyğun olaraq, genom qeydiyyatı yalnız konkret iş üzrə identifikasiya zərurəti ilə məhdudlaşdırılmalı, inzibati xətalar tamamilə istisna edilməli və ağır cinayətlərdə belə blanket deyil, fərdiləşdirilmiş yanaşma tətbiq edilməlidir.[69]

Bunun həlli üçün ilk növbədə normanın legitim məqsəd- məhdudiyyət balansı bərpa edilməlidir. Yəni qanunverici genetik məlumatların toplanmasını yalnız şəxsiyyətin müəyyən edilməsi, naməlum meyitlərin identifikasiyası və itkin düşmüş şəxslərin axtarışı ilə məhdudlaşdırmalı, preventiv və profilaktik nəzarət funksiyalarını isə açıq şəkildə istisna etməlidir. Bu yanaşma AİHM-in *S. and Marper* işində formalaşdırdığı "yalnız zəruri hallarda və fərdiləşdirilmiş əsasda" kriteriyası ilə üst-üstə düşür. Qanunun 14.1-ci maddəsi dövlət genom qeydiyyatının məcburi qaydada tətbiq olunacağı subyektləri sadalayır. Buraya ağır və xüsusilə ağır cinayətlər törətməkdə şübhəli bilinən, təqsirləndirilən və ya bu cinayətlərə görə məhkum olunmuş şəxslərin hamısının daxil edilməsi proporsionallıq prinsipini zəiflədir.[70] AİHM-in *S. and Marper* və *Gaughran* işlərində vurğulandığı kimi, blanket yanaşma, yəni fərdi risk qiymətləndirilmədən bütün kateqoriyaların avtomatik olaraq bazaya daxil edilməsi şəxsi həyata həddindən artıq müdaxilə təşkil edir və təqsirsizlik prezumpsiyasına da mənfi təsir göstərir. Çünki şəxs yalnız şübhə əsasında istintaqa cəlb edildiyi halda belə, sanki potensial təqsirkar kimi genom qeydiyyatına məcburi daxil edilir.[71]

Digər tərəfdən, qanunvericilikdə saxlanma müddətlərinin dəqiq müəyyən edilməməsi və silinmə mexanizmlərinin formal xarakter daşıması əlavə hüquqi boşluq yaradır. Beynəlxalq təcrübədə, məsələn, *Peruzzo and Martens* işində AİHM göstərir ki, məlumatların qeyri-müəyyən müddətə saxlanması Konvensiyanın 8-ci maddəsinin pozuntusudur.[72] Azərbaycan qanunvericiliyində isə genom məlumatlarının nə qədər müddətə saxlanılacağı, hansı hallarda avtomatik silinəcəyi və şəxsin məlumatlarının vaxtından əvvəl silinməsi üçün hansı effektiv prosedurdan istifadə edə biləcəyi aydın şəkildə tənzimlənmir. Bu boşluq praktikada məhdudiyyətsiz

---

[69] Yuxarıda istinad 61, mad. 5.0.4, 12.0.4.
[70] Daha ətraflı bax: Yuxarıda istinad 61, mad. 14.1.
[71] Daha ətraflı bax: Yuxarıda istinad 32; yuxarıda istinad 51.
[72] Daha ətraflı bax: yuxarıda istinad 50.

və qeyri-müəyyən saxlanmaya yol açır ki, bu da həm proporsionallıq, həm də hüquqi müəyyənlik prinsiplərinə ziddir.

Digər problem ondan ibarətdir ki, genom qeydiyyatının aparılması və saxlanması ilə bağlı bütün səlahiyyətlər müvafiq icra hakimiyyəti orqanının üzərinə qoyulmuşdur. Bu isə məhkəmə nəzarətinin zəif olduğu şəraitdə sui-istifadə ehtimalını artırır. AİHM presedentlərində dəfələrlə vurğulandığı kimi, şəxsi həyata müdaxilələrin legitim olması üçün yalnız icra hakimiyyəti orqanlarının qərarı kifayət deyil, effektiv və müstəqil məhkəmə nəzarəti vacib şərtdir. Beləliklə, Azərbaycan qanunvericiliyi yalnız qeydiyyatın tətbiq dairəsini daraltmaqla kifayətlənməməli, həm də məlumatların saxlanma müddətini konkretləşdirməli, real silinmə hüququnu təmin etməli və bu sahədə mütləq məhkəmə nəzarəti mexanizmi yaratmalıdır.

Çıxış yolu olaraq məcburi qeydiyyatın dairəsini daraltmaq lazımdır: genetik məlumat yalnız konkret istintaq və identifikasiya zərurəti olduqda götürülə və saxlanıla bilər; ağır cinayətlər üzrə belə avtomatik, blanket prinsipi ilə bütün kateqoriyaların məcburi qeydiyyatı yolverilməzdir. Qanunvericiliyə fərdiləşdirilmiş risk-qiymətləndirmə mexanizmi daxil edilməlidir ki, DNT nümunələrinin götürülməsi və saxlanılması avtomatik və ümumi qaydada deyil, konkret hüquqi əsas və fərdi zərurət qiymətləndirilməsi əsasında həyata keçirilsin. Bu məqsədlə DNT nümunələrinin götürülməsi yalnız prokurorun və ya məhkəmənin əsaslandırılmış qərarı ilə mümkün olmalıdır. Səlahiyyətli orqan qərar verərkən cinayətin xarakteri, təqsirləndirilən şəxsin statusu və ictimai təhlükəlilik dərəcəsini nəzərə almalıdır. İcra hakimiyyəti orqanlarının rolu yalnız idarəetmə, texniki təminat və məlumat bazasının təhlükəsizliyinə nəzarət funksiyaları ilə məhdudlaşdırılmalıdır. Əgər fərdlərin genetik qeydiyyata alınması, saxlanılması və xüsusilə uzunmüddətli məlumatların qorunması barədə qərarlar məhkəmə və ya prokuror nəzarəti altında qəbul olunsa, bu, sistemin şəffaflığını və hüquqi legitimliyini əhəmiyyətli dərəcədə artırar. Belə modeldə icra orqanı yalnız məhkəmənin və ya prokurorun qərarına əsasən icraedici funksiyanı yerinə yetirər, nəticədə səlahiyyət bölgüsü, məsuliyyət zənciri və fərdi hüquqların müdafiəsi arasında optimal balans təmin edilər.

Qanunvericiliyə əsasən, genetik məlumatların saxlanma və istifadə şərtləri onların silinməməsini təmin etməlidir.[73] Bu müddəa ilk növbədə, məlumatları saxlayan orqanın həmin məlumatların silinməsinin, itirilməsinin qarşısını almaq vəzifəsini müəyyən etsə də, digər tərəfdən bu cür ümumi və qeyri-müəyyən tənzimləmə nəzərdə tutduğu üçün məlumatları saxlanılan şəxsin hüquqlarının pozulmasına səbəb ola bilər. Tənzimləmənin qeyri-müəyyənliyi ondan ibarətdir ki, bu müddəa həm dövlət orqanlarının məlumatları mühafizə etmək vəzifəsi kimi, həm də toplanmış məlumatların heç vaxt

[73] Yuxarıda istinad 61, mad. 16.1.

silinməməsi kimi təfsir oluna bilər. Bu qeyri-müəyyənlik isə, dolayısı ilə, differensial yox, ümumi tənzimləməyə səbəb olur. Yəni həm böyük ictimai təhlükə törətməyən cinayətə görə məsuliyyətə cəlb olunan şəxslərin, həm də xüsusilə ağır cinayət törətmiş şəxslərin məlumatları üçün eyni yanaşma sərgilənir. Bu da şəxsi toxunulmazlıq hüququ kontekstində proporsionallıq prinsipini pozur.

İkincisi, müddətlər, silinmə və nəzarət mexanizmləri konkretləşdirilməlidir: (a) istintaq nəticəsində barəsində ittiham irəli sürülməyən və ya iş bağlanan şəxslərin profilləri avtomatik olaraq qısa müddət ərzində silinməli; (b) ittiham edilmiş, lakin təqsirsiz sayılan şəxslər üçün məhdud saxlama müddəti nəzərdə tutulmalı; (c) məhkumluq halında saxlanma yalnız cinayətin ağırlığı ilə ölçülən konkret müddətlərlə məhdudlaşdırılmalı (məsələn qeyri-zorakı ağır cinayətlər üçün 5–10 il, zorakı/seksual ağır cinayətlər üçün 10–20 il; xüsusi ağır və terror tipli cinayətlərdə isə daha uzun müddət nəzərdə tutulsa da, hər 3–5 ildə bir məhkəmə tərəfindən yenidən qiymətləndirmə mütləq olmalıdır). Hər bir müddətin sonunda məlumatların avtomatik silinməsi mexanizmi və şəxsin əvvəlcədən və sonradan silinməni tələb etmək hüququ (məhkəməyə şikayət) təmin edilməlidir.

Həmçinin şəffaflıq, güclü nəzarət və təsiredici məsuliyyət mexanizmləri zəruridir. Bunun üçün genom qeydiyyatına giriş icazəsi yalnız məhdud sayda, xüsusi təyin edilmiş və audit-logları olan orqanlar üçün nəzərdə tutula bilər. Bütün girişlərin qeydə alınması və müstəqil Data Protection Authority (və ya müvafiq məhkəmə nəzarəti mexanizmi) tərəfindən illik audit və hesabatın tələb edilməsi təhlükəsizlik tədbirlərinin daha effektiv həyata keçirilməsinə şərait yaradar. Qanunda sui-istifadəyə görə sanksiyalar (vəzifə səlahiyyətlərinin aşılması, cinayət və inzibati məsuliyyət, kompensasiya mexanizmləri) nəzərdə tutula bilər. Nəhayət, texniki təhlükəsizlik (şifrələmə, ayrı xidmət qatlarında saxlanma), məlumatların məqsədlə məhdudlaşdırılması (purpose limitation) və qanunun tətbiqi üzrə dövri parlament/komitə monitorinqi və hesabatlılıq mexanizmlərinin formalaşdırılması nəzərdə tutula bilər. Belə paket yanaşma: əhatə dairəsinin məhdudlaşdırılması, müddət və silinmənin dəqiq tənzimlənməsi və güclü müstəqil nəzarət həm fərdin 8-ci maddə çərçivəsindəki hüquqlarını qoruyar, həm də dövlətin effektiv istintaq ehtiyaclarını nəzərə alan proporsional həll təmin edər.

Bir digər əsas problem ondan ibarətdir ki, CPM-in 273-cü maddəsi nümunələrin götürülməsinin ümumi şərtlərini müəyyən etsə də, digər maddələrdə, xüsusən 177.2, 275 və 444.2.2-ci maddələrdə bu prosedurun həm istintaq hərəkəti, həm də prosessual məcburiyyət tədbiri kimi tənzimlənməsi müşahidə olunur. Normativ mətnlərin belə qarışıq və ziddiyyətli təqdimatı hüquqi müəyyənlik prinsipini zəiflədir və həm praktiki icraya, həm də hüquqi müdafiə mexanizmlərinə təsirsiz qalır. Bu normativ uyğunsuzluq

praktikada bir sıra mühüm nəticələr doğurur. Bir tərəfdən, nümunələrin götürülməsinin istintaq hərəkəti kimi qəbul edilməsi müstəntiqin qərarını kifayət hesab etməyə imkan verir. Digər tərəfdən, eyni əməliyyat prosessual məcburiyyət tədbiri kimi qiymətləndirildikdə, yalnız məhkəmənin qərarı ilə həyata keçirilməsi tələb olunur. Bu ikili yanaşma hüquqi rejimin qeyri-müəyyənliyinə səbəb olur və nəticədə müxtəlif işlər üzrə eyni prosedurun müxtəlif formalarda tətbiqi müşahidə edilə bilər. Bu isə müdafiə tərəfinin müdafiə hüququnun zəifləməsinə gətirib çıxarır, çünki tərəf prosedurda hansı qərarın əsas götürüldüyünü və hansı məhkəmə nəzarəti imkanlarının mövcud olduğunu öncədən dəqiq bilmir.[74]

Belə ziddiyyətlərin davamlılığı həm aktların etibarlılığına, həm də məhkəmə nəzarətinin real icrasına mənfi təsir göstərir. Belə ki, əgər nümunələrin götürülməsi müstəntiqin qərarı ilə aparılırsa, bu, müdafiə tərəfinin məhkəmə nəzarəti altında müdaxilə imkanlarını xeyli daraldır. Əksinə, yalnız məhkəmə qərarı ilə icra edildiyi halda isə prosessual təminatlar güclənir, lakin praktikada bu tələb çox vaxt kənara qoyulur. Nəticədə, qanunvericilikdəki bu normativ təzad həm şəxsi müdafiə hüquqlarını zəiflədir, həm də DNT sübutlarının etibarlılığına dair şübhələr doğurur. Ona görə də qanun və CPM arasında uyğunluğun təmin olunması, nümunələrin götürülməsinin istintaq hərəkəti və ya məcburiyyət tədbiri kimi statusunun dəqiq müəyyənləşdirilməsi zəruridir.

Mövcud təzadların aradan qaldırılması üçün, ilk növbədə, qanunvericilikdə nümunələrin götürülməsinin hüquqi statusu dəqiq müəyyən edilməlidir. Əgər bu əməliyyat istintaq hərəkəti hesab edilirsə, müstəntiqin qərarı kifayət etməli, lakin bu halda müdafiə tərəfinin iştirak və etiraz hüquqları daha geniş təmin olunmalıdır. Əgər nümunələrin götürülməsi prosessual məcburiyyət tədbiri kimi qəbul edilirsə, o zaman mütləq məhkəmə qərarı tələb olunmalı və icra yalnız məhkəmə nəzarəti altında həyata keçirilməlidir. Bu ikililiyin aradan qaldırılması hüquqi müəyyənlik prinsipini bərpa edər və həm müdafiə tərəfinin hüquqlarını, həm də istintaqın legitimliyini təmin edər.

Nəhayət, nəzarət mexanizmi gücləndirilməlidir. Hazırda nümunələrin götürülməsi və DNT analizləri müvafiq icra hakimiyyəti orqanının səlahiyyətindədir, lakin bu, sui-istifadə risklərini artırır. Daha balanslı mexanizm üçün məhkəmə nəzarəti institusional şəkildə gücləndirilməli, eyni zamanda müstəqil audit və hesabatlılıq sistemi yaradılmalıdır. Müdafiə tərəfinin nümunələrin götürülməsinə dair qərar və protokollara qarşı məhkəməyə şikayət etmək hüququ açıq və effektiv prosedurla təmin edilməlidir. Belə islahatlar həm prosessual təminatları möhkəmləndirər, həm də DNT sübutlarının etibarlılığını şübhə altına salacaq hüquqi təzadları aradan qaldırar.

[74] Yuxarıda istinad 58, mad. 177.2, 273, 275, 444.2.2.

## Nəticə

Genetik məlumatların cinayət mühakiməsində istifadəsi məsələsinə səthi baxış onu ya "cinayətkarlığa qarşı mübarizədə inqilab" kimi idealizə edir, ya da "məxfiliyə hücum" kimi demonizə edir. Halbuki məsələnin mahiyyəti tam da bu ikili yanaşma arasında sıxışıb qalır. Burada söhbət yalnız hüquqi-texniki məsələlərdən yox, həm də hüququn fəlsəfi əsası – ədalət və azadlıq balansından gedir. Ədalət anlayışı müasir dövrdə artıq yalnız cinayətkarın cəzalandırılması ilə ölçülmür. Ədalət həm də təqsirsiz şəxslərin müdafiəsini, onların damğalanmadan, sui-istifadədən qorunmasını ehtiva edir. DNT texnologiyası məhkəmələrə yanlış məhkumluqları aradan qaldırmaq, həqiqi cinayətkarı aşkarlamaq imkanı versə də, eyni zamanda, fərdin bioloji kimliyini, ailə əlaqələrini və gələcək nəsillərini ifşa edəcək qədər güclü "nəzarət vasitəsi"dir.

AİHM-in mövqeyi göstərir ki, genetik məlumatların saxlanması məsələsində problem təkcə müdaxilənin mövcudluğunda deyil, onun strukturundadır. Məhkəmə təkidlə vurğulayır ki, blanket (fərqləndirməsiz və müddətsiz) siyasətlər qəbul edilə bilməz. Bu, bir daha təsdiq edir ki, hüququn mahiyyəti "ümumi təhlükəsizlik" şüarı ilə şəxsi azadlıqların sıradan çıxarılmasına imkan verməməkdir. Dövlət yalnız fərdi risk qiymətləndirilməsinə əsaslanan, müddətli və şəffaf sistemlər qura bilər. Yəni burada məsələ texniki deyil, konseptualdır: dövlət hər kəsi potensial cinayətkar kimi görmək hüququna malik deyil.

Azərbaycan qanunvericiliyi isə, təəssüf ki, hazırda məhz bu təhlükəli tendensiyanı ehtiva edir. "Genetik məlumat əsasında" kimi geniş ifadələr, preventiv nəzarət məqsədinin qanunda saxlanılması, müddətlərin və silinmə mexanizmlərinin olmaması, faktiki olaraq, istənilən vətəndaşı genom bazasında potensial "təqsirkar"a çevirir. Bu, təqsirsizlik prezumpsiyasının pozulması ilə yanaşı, Konstitusiyanın 32-ci maddəsindəki şəxsi həyatın toxunulmazlığına da ziddir. Buradakı əsas problem qanunun mətnində deyil, onun ruhundadır: qanunverici texnologiyanı insan hüquqlarının xidmətinə vermək əvəzinə, insan hüquqlarını texnologiyanın ixtiyarına buraxır.

Məhz buna görə də bu sahədə islahat yalnız normativ texniki düzəlişlərlə məhdudlaşmamalıdır. Əsl dəyişiklik hüquqi fəlsəfədə olmalıdır: genetik məlumatlar hüququn predmetində yalnız sübut vasitəsi kimi deyil, həm də hüquqların müdafiəsi predmeti kimi qəbul edilməlidir. Dövlət onların üzərində nəzarət və istifadə imkanına sahib olduğu qədər, həm də onların qorunmasının "pozulmaz sərhədlərini" təsbit etməlidir.

Nəticə etibarilə, cinayət mühakiməsində genetik məlumatlardan istifadə tamamilə qadağan edilməli deyil. Bu, cinayətkarlıqla mübarizəni iflic edərdi. Amma o da aydındır ki, genetik məlumatlardan məhdudiyyətsiz, məqsədsiz və fərqləndirməsiz istifadə insan hüquqlarına ziddir. Ən optimal yanaşma

məhdud əhatə, fərdiləşdirilmiş qiymətləndirmə, müddətli saxlama və məhkəmə nəzarəti kimi mexanizmlərin tətbiqidir.

Əgər hüquq bu prinsipləri təmin edə bilsə, onda genetik məlumatlar, həqiqətən də, "yeni dövr"ün başlanğıcına çevriləcək, həm cinayətkarlığa qarşı mübarizədə effektiv vasitə, həm də insan hüquqlarının yüksək standartlarla qorunduğu bir sistemin nümunəsi olacaq. Əks halda isə, bu sahə məxfilik hüququnun ən böyük zərbə aldığı, vətəndaşların dövlətə və hüquq sisteminə inamını itirdiyi təhlükəli bir "müdaxilə zonası"na çevriləcək.